## ABŞ-ın Azərbaycandakı yeni müvəqqəti işlər vəkili təyin olunub




**Hüqo Gevara ABŞ-ın Azərbaycandakı səfirliyində müvəqqəti işlər vəkili təyin edilib.**

Hüqo Gevaranın Dövlət Departamentində böyük təcrübəsi var və son zamanda tutduğu vəzifələrdən biri ABŞ-ın Qvatemala şəhərindəki səfirliyində Qvatemala hökuməti ilə təhlükəsizlik və qanunun aliliyi sahəsində əməkdaşlığın inkişafı və irəliləməsi olub.

Bildirilib ki, hazırkı işinə başlamazdan əvvəl Hüqo Gevara Vaşinqtonda Azərbaycan dilini öyrənib.



## Ərdoğan avqustun 5-də Soçidə Putinlə görüşəcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyaya səfər edəcək.**

Bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb.

Avqustun 5-də baş tutacaq səfər zamanı Ərdoğan Soçidə Rusiya lideri Vladimir Putinlə görüşəcək.

№ 130 (5652), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 iyul 2022-ci il (çərşənbə)



# Kəlbəcərdə hərbi hissə komandiri minaya düşüb

### Hadisə ilə bağlı cinayət işi başlanıb

**Dünən Kəlbəcər rayonunun işğaldan azad olunmuş ərazisində Müdafiə Nazirliyinin N saylı hərbi hissə komandiri Vüqar İsbəndiyarovun minaya düşməsi barədə məlumat daxil olmuşdur.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Hərbi prokurorluğun əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, məhkəmə-tibb ekspertizası təyin edilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla Vüqar İsbəndiyarovun rayonun Cəmilli kəndi ərazisində xidməti vəzifələrini icra edərkən piyada əleyhinə minaya düşməsi nəticəsində ağır dərəcəli bədən xəsarətləri alması müəyyən edilmişdir.

Faktla bağlı Kəlbəcər hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.12-ci (qəsdən adam öldürməyə cəhd, milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmışdır.

Hazırda istintaq davam edir.



## "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi hazırlanır

**Azərbaycan Respublikası Milli Məclisində təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ilə bağlı Milli Məclis sədrinə müraciət ediblər.**

Mraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanmasının zəruriliyi vurğulanır. Sənədin hazırlanmasına üzrə işə başlanılıb.

Bu qanunun ictimai əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Milli Məclisinə təqdim etmələri xahiş olunub.

## Tarif Şurası benzin və dizelin pərakəndə satış qiymətlərini dəyişməyib



**Tarif (qiymət) Şurası bu gün keçirilən növbəti iclasında Azərbaycanda "AI-92" markalı avtomobil benzininin və dizelin pərakəndə satış qiymətlərini dəyişməyib.**

Bu barədə "Şərq"ə Tarif Şurasından bildirilib.

"İclasda benzin və dizel üzrə tətbiq edilən tariflərin müəyyən olunmasına dair Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılıb və aparılan tarif dəyişikliyi benzinin və dizelin pərakəndə satış qiymətlərinə təsir göstərməyəcək və həmin məhsulların mövcud pərakəndə satış qiyməti dəyişmir", məlumatda deyilir.

(səh.2)

# ABŞ sülh prosesində iştirakçılığını artırmaq istəyir

### Antoni Blinkenin Bakıya və İrəvana telefon zəngi üç kontekstdə diqqət çəkira





**İyulun 25-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib.**

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib. Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Dövlət başçısı bəyan edib ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir. Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib. Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olunub. Sonra dövlət başçısı humanitar məsələlərə toxunub. Birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu deyib.

(səh.5)

# Şuşa səfəri, Şuşa qəhəri




**Xəyalən min dəfə hazırlaşıb, götür-qoy etdiyim bu səfərə qatılmağım Həsən bəy Zərdabinin "Əkinçi"sinin 147 yaşında oldu. Mayda "Xarıbülbül" günlərinə dəvət alsam da, səfərdəydim, Türkiyədə qatıldığım konfransla eyni tarixə tuş gəlmişdi xəyalımdakı Şuşa səfəri.**

Bəli, bərli-bəzəkli, epitetlərlə dolu nə qədər istəsən şahanə cümlələr yazmaq olar Şuşaya. Uyğundur da. Amma bütün gözəllikləri və özəlliyi özündə, tarixində yaşadan Şuşaya nə möcüzə deyib yazacam, nə də ki, bəzəkli cümlələrlə bu əzəmətə nəyisə əlavə etmək istəyəcəm. Əslində, 44 günlük Vətən savaşının bitmə nöqtəsiydi Şuşa. Eləcə də bitdi bu qanlı savaş, azadlığa qovuşdu Şuşa.

(səh.3)



## ABŞ Milli Qvardiyasının general-mayoru Bakıdadır

**ABŞ Ordusunun Avropa və Afrikadakı komandanının müavini, Milli Qvardiyanın general-mayoru Maykl Uikman Azərbaycanda səfərdədir.**

Bu barədə ABŞ Səfirliyinin tvitter səhifəsində paylaşım edilib.

"ABŞ Səfirliyi Azərbaycanda səfərdə olan ABŞ Ordusunun Avropa və Afrikadakı komandanının müavini, Milli Qvardiyanın general-mayoru Maykl Uikmanı salamlayır. Səfər zamanı o, hərbi tibb və kibertəhlükəsizlik sahələrində ikitərəfli əməkdaşlığın gücləndirilməsini müzakirə edəcək", - məlumatda bildirilir.

## 4 nəfər vəfat edib

### Azərbaycanda daha 306 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirusa 306 yeni yoluxma qeydə alınıb, 258 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Məlumata görə, sutka ərzində koronavirusdan 4 nəfər vəfat edib.

Ölkədə indiyədək 796 882 nəfər koronavirusa yoluxub. Onlardan 785 166 nəfər müalicə olunaraq sağalıb, 9 739 nəfər vəfat edib, aktiv xəstə sayı 1 977 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 739, hazırkı dövrədək isə 7 029 737 test aparılıb.*

## 60 yaşlı qadın ehtiyatsızlıqdan qolunu kəsdi



**Zaqatalada 60 yaşlı qadın ehtiyatsızlıqdan qolunu kəsib.**

Qafqazinfo xəbər verir ki, hadisə rayonunun Muxax kəndində baş verib. Kənd sakini 1962-ci il təvəllüdlü Aşurey Qədirova fındıq bağında həyat yoldaşı ilə təmizlik işləri aparan zaman ehtiyatsızlıqdan ot biçən sağ yuxarı ətrafın bazu və dirsək nahiyəsini kəsib.

Hadisə zamanı ağır xəsarət alan A.Qədirovaya Zaqatala Rayon Mərkəzi Xəstəxanasında ilkin yardım göstərilib. Daha sonra müayinə və müalicəsini davam etdirmək üçün o, Bakıdakı xəstəxanalardan birinə göndərilib.

Faktla bağlı araşdırma aparılır.



## İranla Rusiyanın qərarı kağız üzərində qalacaq

Bir sıra aparıcı ölkələr dollardan imtina etməyə çalışsalar da bunu reallaşdıra bilməyiblər

(səh.3)



## Heç kimi məcburi vəzifəyə təyin etmirlər

İşi bacarmayan icra başçıları özləri geri çəkilməlidirlər

(səh.5)

## Tarif Şurası benzin və dizelin pərakəndə satış qiymətlərini dəyişməyib

**Tarif (qiymət) Şurası bu gün keçirilən növbəti iclasında Azərbaycanda "AI-92" markalı avtomobil benzininin və dizelin pərakəndə satış qiymətlərini dəyişməyib.**

Bu barədə "Şərq"ə Tarif Şurasından bildirilib.

"İclasda benzin və dizel üzrə təchizat tariflərinin müəyyən olunmasına dair Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılıb və aparılan tarif dəyişikliyi benzinin və dizelin pərakəndə satış qiymətlərinə təsir göstərməyəcək və həmin məhsulların mövcud pərakəndə satış qiyməti dəyişmir", məlumatda deyilir.



Qeyd edilib ki, məsələ ilə bağlı ötən müddət ərzində müvafiq təhlil işləri aparılmış və bu cür halların aradan qaldırılması məqsədilə benzin və dizel üzrə pərakəndə satış qiyməti müvafiq olaraq 1 litr üçün 1 manatr və 0,80 manat səviyyəsində əvvəlki kimi saxlanılmaqla tarif zəncirində dəyişiklik edilərək topdasatış və pərakəndə satış üzrə təchizat tariflərinin ayrılıqda müəyyən olunması məqsədəuyğun hesab olunub.

Azərbaycanda "AI-92" markalı avtomobil benzini və dizel yanacağı Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda istehsal olunur.



## Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib

### Qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tapşırıqlar verilib

**Dünən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası keçirilib.**

İclası giriş sözü ilə açan Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə keçirilən ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısının çıxışından irəli gələn vəzifə və tapşırıqları vurğulayıb. Qərargahın fəaliyyətinin planlılıq, operativlik, şəffaflıq kimi prinsiplərə əsaslanaraq daha da təkmilləşdirilməsinin önəmini bildirib.

Sonra 2022-ci il iyulun 5-də Nazirlər Kabineti və Əlaqələndirmə Qərargahı üzvlərinin Suqovuşan və Ağdam istiqamətinə səfəri zamanı müəyyənləşdirilmiş məsələlərə dair müzakirələr aparılıb.

Zəngilan rayonunun Ağalı kənd sakinlərinin qayıdışının birinci mərhələsi üzrə 41 ailənin köçürülməsinə toxunan Qərargah rəhbəri Böyük Qayıdış prosesinin başlaması ilə əlaqədar qarşıda duran yeni vəzifələri qeyd edib.

İclasda Əlaqələndirmə Qərargahının cari fəaliyyəti ilə bağlı məsələlər, o cümlədən yaşayış məntəqələrinin şəhərsalma sənədlərinin hazırlanması, mühəndis-kommunikasiya və sosial infrastrukturla təmin edilməsi, habelə əhalinin qayıdışının təşkili və dayanıqlı məskunlaşması üzrə məsələlər müzakirə olunub.

Sonda qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı zəruri tədbirlər müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

## Azərbaycanla Rusiya arasında daha bir sənəd təsdiq edilib

**2022-ci il martın 4-də Moskva şəhərində və martın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol" təsdiq edilib.**



Bu, Prezident İlham Əliyevin dünən imzaladığı "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol"un təsdiq edilməsi barədə fərmanda əksini tapıb.

Fərmana əsasən, bu Fərmanda göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərməlidir.

## Avropada qazın qiyməti 1900 dolları ötüb



**Avropada iyulun 26-da keçirilən hərracın gedişində min kubmetr qazın qiyməti 3 faizdən çox bahalaşaraq 1900 dolları ötüb.**

Londonun ICE birjasının məlumatına görə, hazırda Niderlanddakı TTF habında min kubmetr qazın avqust fyuçersinin qiyməti 1929 dollardır. "Şimal axını" boru kəməri ətrafında yaranan vəziyyət fonunda təbii qazın qiyməti iyulun 14-dən bəri ilk dəfə bu həddə yüksəlib.

Bu ərəfədə "Qazprom" kompaniyası "Portovaya" kompressor stansiyasında təmirlər arası müddətin başa çatması səbəbindən daha bir qaz-turbin mühərrikinin işinin dayandırılması ilə bağlı bəyanat verib. Nəticədə iyulun 27-dən "Şimal axını" ilə qaz nəqli təxminən iki dəfə azalaraq 33 milyon kubmetrə enəcək. Hazırda həmin göstərici 67 milyon kubmetrdir.

## "Səfir sağ olsun, Təbrizi gündəmə gətirdi"

### Əlisahib Hüseynov: "Bizim üçün önəmli olan Güney Azərbaycanda yaşayan soydaşlarımızın taleyidir"



**"Hər kitabın oxucuların diqqətini cəlb etmək baxımından bir "qızıl dövrü" olur. Cəmilə Həsənzadənin müəllifi olduğu "Təbrizin sehrli nağılları" kitabının da öz "qızıl dövrü"nü yaşaması üçün görünür, məhz İsrail səfirinin bu kitabla bağlı paylaşım etməsi lazım imiş".**

Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, məhz həmin paylaşımdan sonra sözügedən kitab sosial mediada sürətlə trendə çevrildi: "İndi bu kitabla bağlı ictimai fəallardan tutmuş siyasətçilərə qədər bir çoxları paylaşım edir. Ancaq məsələ kimlərin trendə qoşulub-qoşulmamasında deyil. Bu, bir könül və dünyagörüş məsələsidir, kim istəsə qoşula bilər. Qoşulmaq istəməyəni isə kimsə buna məcbur edə bilməz. Əsas məsələ Qumdakı, Məşhəddəki, Tehrandakı müctəhidlərin, ayətullahların aşiqinə, ardıcılına, tərəfdarına çevrilmiş bəzi iranpərəst gənclərimizin bu trendə qoşulanların paylaşımlarına verdikləri aqressiv reaksiyalardır. Belələri İsrail səfirinin "Təbrizin sehirli nağılları"nı paylaşmasını, Pentaqonun keçmiş əməkdaşı Maykl Doranın bu paylaşıma dəstək verməsini İsrail səfirinin İran ilə bizim əlaqələrə zərbə vurmaq niyyəti kimi, təxribat kimi qələmə verməyə çalışır. Bildirirlər ki, Azərbaycanı belə təxribatlarla yeni müharibə mərkəzinə çevirmək istəyirlər. Əslində belələrinin əks fikirlərlə çıxış etmələrinin səbəbi heç də onların Azərbaycanı çox istəmələri, ölkəmizin gələcəyi üçün narahatlıq hissi keçirmələri ilə bağlı deyil. Əsas məram, məqsəd İrandakı "ağa"larına yarınmaq, ilk növbədə məhz İranın maraqlarını müdafiə etməkdir. Bizim üçün isə nə İranın, nədəki İsrailin və ABŞ-ın maraqları önəmli deyil. Bu ölkələrin arasında cərəyan edən geosiyasi mübarizə birinci il deyil ki, davam edir. Bizim üçün önəmli olan Güney Azərbaycanda yaşayan soydaşlarımızın taleyidir.

Biz bütün diqqətimizi məhz bu məsələnin üzərində cəmləşdirməliyik".

**Ə.Hüseynova görə, Güney azərbaycanlıların taleyi hər zaman diqqət mərkəzimizdə olmalıdır:** "Səfir də sağolsun ki, Təbrizi gündəmə gətiməklə, dünyanın diqqətini həm Təbrizə, həm də burada yaşayan azərbaycanlılara yönəltdi. Bizim ikiyə bölünmüş xalq olduğumuzu vurğuladı. Önəmli olan budur. Bunu hansı ölkənin səfirinin etməsi əhəmiyyətli deyil. Əsas odur ki, güneyli soydaşlarımızın hazırkı durumu dünyanın diqqətini cəlb etdi. Bundan sonra Təbrizlə, Urmu gölünün vəziyyəti ilə, Güney Azərbaycandan olan siyasi məhbusların ağır durumu ilə maraqlananların sayı yəqin ki, artacaq. Yaxşı ki, "Təbrizin sehrli nağılları" var".

**İsmayıl Qocayev**

## Turistlərin 80 faizi Bakıya üstünlük verirlər

### Təəssüf ki, hələ də bölgələr turizm potensialını tam təqdim edə bilmirlər



**"Azərbaycana gələn turistlərin 80 faizi Bakı şəhərinə üstünlük verirlər. Bu o deməkdir ki, ölkəyə gələn hər 100 turistdən cəmi 20-si Bakıdan kənara, rayonlara gedir".**

Bu sözləri millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, turistlərin ikinci ən çox üstünlük verdiyi rayon Qəbələdir: "Azərbaycana gələnlərin 6,2 faizi sözügedən rayonda qalıblar. Bütövlükdə, turistlərin 4,5 faizi Qusarda, 3,1 faizi Qubada, 2,3 faizi Naftalanda, 1,1 faizi Şabranda, 0,7 faizi Naxçıvan Muxtar Respublikasında, 2,2 faizi isə digər şəhər və rayonlardakı mehmanxanalarda gecələyiblər. Göründüyü kimi, bölgələrimiz xarici turist cəlb etməkdə paytaxt otellərinə yenə də uduzurlar. Paytaxtın infrastrukturunu nəzərə aldıqda bu, normal qarşılana bilsə də regional gecələmə sayında fərqin böyük olması diqqəti çəkir. Təəssüf ki, hələ də bölgələr turizm potensialını tam təqdim edə bilmirlər və bu da xarici turist cəlbində çətinlik yaradır. Digər tərəfdən, əksər rayonlarda turizm xidmətlərinin qiyməti yüksək olaraq qalmaqdadır. Keyfiyyət isə hələ də standartlardan geri qalır. Bu ilin ilk yarısında mehmanxana (otel) və mehmanxana tipli obyektlərdə keçirilmiş gecələmələrin sayı 2021-ci ilin eyni dövrü ilə müqayisədə 47,8 faiz artaraq 1 milyon 27 min olub. Azərbaycan otellərində qalanlar arasında körfəz ölkələri öndədir".

**İsmayıl**

**İyulun 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. Əvvəlcə Komissiyanın 2022-ci il 27 may tarixli iclasının protokolu təsdiq olunub. Sonra seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın yenidən formalaşdırılması məsələsinə baxılıb.**



## 832 yeni seçki məntəqəsi yaradılıb

### MSK-da yeni struktur vahidlərinin yaradılması da təklif olunub

Xatırladılıb ki, 2022-ci ilin daimi seçici siyahılarının tərtib olunması və dəqiqləşdirilməsi prosesi yekunlaşdıqdan sonra bir sıra seçki məntəqələrinin ərazisində seçici sayının Seçki Məcəlləsi ilə müəyyən edilmiş saydan çox olması müəyyən olunmuşdu. Bu səbəbdən də Komissiya seçici sayı qanunvericiliklə müəyyənləşdirilmiş saydan çox olan seçki məntəqələrinin ərazisində təxirə salınmadan əlavə seçki məntəqələrinin yaradılmasını müvafiq dairə seçki komissiyalarına həvalə etmişdi.

**"Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə formalaşması.."**

İclasda bildirilib ki, Seçki Məcəlləsinin tələblərinə əsasən seçki dairələrinin yaradılması sxemini, onun qrafik təsvirlərini, habelə seçki dairələrinin hüdudlarına dair təklifləri Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılan və mütəxəssislərdən ibarət olan komissiya hazırlayır. Seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə sözügedən komissiyanın işinə Mərkəzi Seçki Komissiyasının sədr müavini rəhbərlik edir və vəzifəsinə görə o, komissiyanın sədri hesab olunur. Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə formalaşması əsas məqsədi seçki dairələrinin qanunvericiliyin tələblərinə uyğun yaradılmasını təmin etmək olan komissiyanın da yeni tərkibdə təsdiq edilməsi zərurətini ortaya çıxarıb. Yuxarıda sadalananlar və Seçki Məcəlləsinin tələbləri əsas götürülərək, seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya Mərkəzi Seçki Komissiyasının sədr müavininin rəhbərliyi ilə müvafiq Komissiya üzvləri və aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət tərkibdə yenidən təsdiq edilib.

**"Çalışırdıq ki, üç adlı seçki dairələri olmasın"**

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib ki, əsas məsələ seçki dairələrinin sərhədlərinin müəyyən edilməsidir. MSK sədri bildirib ki, bu, ciddi məsələdir:** "Burada müəyyən maraqların toqquşması, yeni seçki məntəqələrinin yaradılması ilə bağlı problemlər ola bilər. Çünki yeni yaradılan hansısa məntəqəyə görə əhalini həmin seçki məntəqəsində səs verməyə məcbur etmək olmaz. Ona görə hansı yerlərdə problem olması ehtimalı varsa, dairə sərhədlərinin müəyyən edilməsinə oradan başlamaq lazımdır. Optimal yolları seçmək lazımdır ki, dairələrin sərhədlərinə toxunulmasın. Biz çalışırdıq ki, üç adlı seçki dairələri olmasın. Bütün ölkə üzrə seçki dairələrinin sərhədlərinin toxunulmazlığını nəzərə alaraq, maksimum çalışmaq lazımdır ki, seçki dairələrinin adında 2 addan o tərəfə keçməyək. Yaşayış məntəqələri arasında konflikt yaradılmamasına diqqət edilməlidir. Maksimum elə etmək lazımdır ki, seçki dairələrinin sərhədləri ilə bağlı problem yaranmasın". Məzahir Pənahov sosial şəbəkələrdə problemin baş verəndən sonra qabardılmasına da münasibət bildirib: "Bizə vaxtında yerlərdə olan problemlərlə bağlı əvvəlcədən məlumat verilmir. Əfsuslar olsun ki, yalnız problem baş verəndən sonra paylaşırlar".

**"Azərbaycanda seçici siyahıları dəqiqləşdirilib"**

Komissiyanın iclasında, həmçinin bəzi seçki dairələri, dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb. Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov deyib ki, 2022-ci ilin yanvar ayının əvvəllərindən may ayının sonuna qədər Mərkəzi Seçki Komissiyası Azərbaycanda seçici siyahılarının dəqiqləşdirilib tərtib olunması prosesini həyata keçirib. Rövzət Qasımov bildirib ki, seçki məntəqələri üzrə ən azı 50, ən çoxu 1500 seçici ola bilər: "Bununla əlaqədar may ayının əvvəlindən iş aparılıb. Seçki Məcəlləsinin tələbi ilə bağlı 1300-dən artıq seçki məntəqəsinin yaradılması zərurəti yaranmışdı. Həmin vaxtdan bəri 103 seçki dairəsinin ərazisində 832 yeni seçki məntəqəsi yaradılıb. Respublika üzrə ümumi 6274 seçki məntəqəsi fəaliyyət göstərəcək. Həmin məntəqələrin seçici siyahıları və s. məsələləri artıq həll olunub. Bələdiyyələrin sərhədlərinin kəsilməməsi prinsipi seçki məntəqələrinin yaradılması prosesində nəzərə alınıb. Artıq növbəti mərhələ seçki dairələrinin sərhədlərinin müəyyənləşdirilməsidir. Bu proses xüsusi komissiyanın səlahiyyətindədir".

**"Hazırda kommunikasiya ilə bağlı da bir struktur vahidinin yaradılmasına ehtiyac var"**

**Rövzət Qasımov deyib ki, Mərkəzi Seçki Komissiyasında yeni struktur vahidlərinin yaradılmasına ehtiyac var:** "Gələcəkdə kadrların idarə olunması ilə bağlı yarana biləcək problemlərin qarşısını preventiv şəkildə almaq üçün kadrların idarə olunması ilə bağlı yeni struktura ehtiyac yarandığı görünür. 30 mindən yuxarı aşağı seçki komissiyalarının üzvlərinin və DSK-ların katibliklərində çalışan əməkdaşların idarə olunmasından söhbət gedir. MSK-da bu sahədə struktur vahidinin təsisi məsələsinə baxaq. Çətinliklərin yaranmaması üçün əvvəlcədən hansı addımlar atmalı olduğumuzu müəyyənləşdirməliyik. Hazırda kommunikasiya ilə bağlı da bir struktur vahidinin yaradılmasına ehtiyac var".

**Məzahir Pənahov qeyd edib ki, bu çox ciddi məsələdir:** "Bununla məşğul olmaq üçün xüsusi qrup yaradaq. Bu qrupda yeni struktur vahidinin hazırlanması ilə bağlı təkliflər hazırlansın və müzakirəyə təqdim edilsin. Qrupun tərkibinə Katibliyin 3 nümayəndəsi və MSK üzvləri də daxil edilsin. Bizim tələbimiz hansısa qurum yaratmaq deyil, boşluğu doldurmaqdır. Bu məsələyə çox ciddi yanaşmaq lazımdır".

**Ağcabədi DSK-nın üzvü həbs olunub**

**MSK katibi Mikayıl Rəhimov deyib ki, 82 saylı Ağcabədi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Aydın Bəşir oğlu Quliyev həbs olunub.** O bildirib ki, bu gün keçirilən ilk iclasda Aydın Quliyev DSK üzvlüyündən çıxarılıb: "Məhkəmə qərarına əsasən, o, 31 may tarixində həbs edilib".

**İsmayıl**




Akif Aşırlı

# Şuşa səfəri, Şuşa qəhəri

**Xəyalən min dəfə hazırlaşıb, götür-qoy etdiyim bu səfərə qatılmağım Həsən bəy Zərdabinin "Əkinçi"sinin 147 yaşında oldu. Mayda "Xarıbülbül" günlərinə dəvət alsam da, səfərdəydim, Türkiyədə qatıldığım konfransla eyni tarixə tuş gəlmişdi xəyalımdakı Şuşa səfəri.**

Bəli, bərli-bəzəkli, epitetlərlə dolu nə qədər istəsən şahanə cümlələr yazmaq olar Şuşaya. Uyğundur da. Amma bütün gözəllikləri və özəlliyi özündə, tarixində yaşadan Şuşaya nə möcüzə deyib yazacam, nə də ki, bəzəkli cümlələrlə bu əzəmətə nəyisə əlavə etmək istəyəcəm. Əslində, 44 günlük Vətən savaşının bitmə nöqtəsiydi Şuşa. Eləcə də bitdi bu qanlı savaş, azadlığa qovuşdu Şuşa.

İyulun 23-ü sübh tezdən Azad Şuşaya Şuşa adlı təyyarə ilə Beynəlxalq Hava Limanının Şimal terminalından uçmalı oluruq. Şimal küləyinin möhtəşəm təyyarənin qanad açıb havalanmasına, Şuşaya qovuşmasına təsirin getdikcə azaldığı bir vaxtda səhərin gözü açılmamış eyni açılan jurnalistlər ordusu təyyarəyə tələsir. Milli kimliklə uçuş siyahısındakı soyadım arasında uyğunsuzluğu da ortaya qoyur Şuşa səfəri. Deməli, milli kimliklərimizə də çoxdan etməli olduğumuz dəyişiklikləri etməli, əl gəzdirməliyik. Bu geniş uçaq salonunda təyyarə kapitanının müraciəti saydığımız bir səs ətrafa yayılır: "Əziz dostlar, həmkarlar. Sizi Milli Mətbuat günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Danışan həmkarınız Hikmətdir". Səmimiyyətin, sadəliyin, öz peşəsinə bağlılığın bundan başqa ifadəsini tapmaq çətindir. Jurnalist ordusunun Şuşa səfəri barədə Prezident İlham Əliyev məlumatlandırılan zaman verilən qərarı da Hikmət Hacıyev qısa söylədi: "Cənab Prezidentin göstərişi ilə bu təyyarə ayrıldı".

Qarış-qarış azad edilən bu çətin yolları Şuşaya bağlayan şəhidlərimizin ruhu şad olsun, yaralı qazilərimizə Tanrı səbr versin, səhhətinə qovuşsunlar. Min bir çətinliklə, əzmlə, qan hesabına qurtulan bu yollardan onların əliqələmli soydaşları, qardaş və bacıları rahat keçib, arzularının ünvanına qovuşur.

Böyük salonlu hava gəmisindəki oturacaqlardan "23 E"-də əyləşməliyəm. Sağımda uzun illərin dostu Umud Mirzəyev, solumda çağdaş jurnalistikamızın iti gözü Xəqani Səfəroğlu əyləşir. Umud Mirzəyev qurdalanır yerində, cibindən çıxardığı telefonla həm salonu çəkir, həm də bizi. Hətta reportyorluq edib qısa hiss-həyəcanımızı, təəssüratlarımızı telefonun yaddaşına köçürür.

Düşünürəm, indi rahat əyləşib sərnişini olduğumuz Şuşa təyyarəsi təkcə Qarabağa yön almayacaq, zamanla başqa istiqamətlərdə, ölkə xaricinə də uçuşlar edəcək. Mənim əyləşdiyim bu oturacaqda bəlkə aylar, illər sonra müxtəlif millətlərə mənsub insanlar üz tutduqları ünvanlara tələsəcək. Amma onların heç biri 30 illik həsrətin sonu olan bu yolçuluğun şirinliyini, ləzzətini, kədər qarışıq sevincini yaşamayacaq. Xoşbəxtəmmi? Əlbəttə.

Zəfər yolu çox enişli, yoxuşlu, bəzən də qarşıdakı təhlükələri hiss etməyəcək qədər qıvraq bir yoldur. İnşaat mühəndisləri bu yolun nə qədər hamarlığını yaratmağa çalışsalar da bəlkə də alınmayacaq. Çünki bu Zəfər elə-belə, hamar qazanılmayıb, sadə, sıradan bir Zəfər deyil. Fəth yoludur bu. Ali Baş Komandan və Milli Ordusunun Azərbaycan ruhundan doğan əzmkarlığının, mübarizliyinin, döyüşkənliyinin qəti iradəsinin nəticəsidir.

Füzuli Hava Limanından sonra Şuşaya qədər 70 kilometrlik incə bir yolda Rəşad Məcidlə yoldaşlığım davam edir. Bir neçə dəfə Rəşad Şuşada olub. Hələ sovetlər dönəmində də burada olduğunu yazılarından, söhbətlərindən bilirəm. Səhərin dan şəfəqləri bu müqəddəs torpaqları öpdüyü vaxtda Rəşad əli ilə pəncərədən uçulub dağılan evləri, kəndləri göstərir, susur. Handan hayana məni yuxulu bilib dümsükləyir: "Bax, bura Daşaltıdır". "Hə" - deyirəm. Bir azdan isə yolun solunda sülhməramlılar görsənir. Uzun-uzadı danışmağın, etirazın, incikliyin, sual verməyin burada mənası yoxdur, çünki cavab, izahat bəllidir.

Qayaların üstündə göyərir Şuşa. Quruluşu, relyefi, coğrafi imkanları işğala imkan verməyən Şuşa axı necə işğal ola, əsarətə düşə bilərdi. Xəyanət olub deməli. Sıldırımlı qayalara baxan adam nər oğulların Şuşanı dişi, dırnağı, əzmi, iradəsiylə əsarətdən qurtarmağını yəqin edir. Düşmənin səngərlə, tələlərlə, müdafiə sistemləriylə dolu olan çətin yollarda igid ordumuzun sipər-sipərə, qana-qan döyüşdükləri şəksizdir. Milli ruh oyanmasa bu əzəmətli Zəfər qazanıla bilməzdi. Milli ruhu diri tutan onun milli mətbuatı, teatrı, kinosu, yazıçı-şairi, rəssamıdır. Nə fayda ki, millət, milliyyət sözündən xoşlanmayanlar da var bu cəmiyyətdə. "Milli mətbuat" ifadəsini yersiz hesab edənlər də var, milli təfəkkürdən, düşüncədən məhrum olan bəsit insanlar tapılır ki, nə yazıq, bəzən cərgəmizdə beləbəri boy göstərir, söz söyləyir, jurnalistikanın inkişafı üçün yol xəritəsi cızır.

Qala qapısına yaxınlaşan vaxt yaddaşımı qurdalayıb, xatırlayıram ki, Həsən bəy Zərdabinin "Əkinçi"nin nəşrindən öncə 1870-ci illərdə Qafqaz Azərbaycanına, Şuşaya da səfəri olub.

Bu səfərdə Həsən bəy qara qaytanlı, nömrəli kitabını götürüb azərbaycanlı türk balalarının gimnaziyada təhsili üçün ianə yığırdı. Bəylərin, zadəganların qapısını döyüb izah etməyə çalışırdı ki, gələcəyimiz təhsilə, elmə bağlıdır. Əgər bu yolu tutub irəliləməsək qonşularımız bizi özünə nökər, qul edəcək, qəpik-quruşa işlədəcək. Sonda... Sonda isə millət formalaşmayıb, əsarət altında dilini, dinini, mədəniyyətini itirəcək.

Qarabağın, Şuşanın 29 illik işğal dövründə gözümüz, qulağımız sinoptiklərin verdiyi məlumatlardaydı. Görəsən, havalar necədir Şuşada, yağış yağırmı, gün doğubmu, qar varmı, üşüyürmü Şuşa? Beynimizdə min dəfə təkrarlanan sualın müxtəlif cavabları olurdu. İndi Şuşa öz azadlıq havasıyla qarşılayır bizi. Şuşanın halını bilənlər avtobusdan enən zaman "yağış yağacaq" deyirdilər. Olsun. Şuşanın yağışı da, dumanı da qəbuldur, əzizdir, gözəldir. Avtobusdan aralanıb ətrafda qurulan ağ çadırlara tərəf hərəkət edirik.

Bəlkə də bir az erkən gəlmişik deyə çayçılar hələ çayı qaynadıb başa gətirə bilməmişdilər. MEDİA könüllüləri də ora-bura tələsir, tapşırıqları ürəklə, komsomolsayağı yerinə yetirməyə çalışırdılar. Bu könüllülərin cərgəsində iki "Şərq"çi də var. Əvvəl başladığımız könüllülər hərəkatından seçilib sıralarımıza qatılan Aygün Tahirqızı və bir müddət qələmini "Şərq"in səhifələrində sınayan Xanlar Əlibəy. Uğurlu jurnalist karyerası olacaq bu gəncləri Şuşada görmək də ayrıca bir sevinc doğurur.

Məruzələr başlayır. Moderator Rüfət Həmzəyevdən sonra həmkarımız, Prezidentin köməkçisi Hikmət Hacıyev danışır, Prezidentin təbriklərini Beynəlxalq Media Forumunun iştirakçılarına çatdırır.

Açıq diskussiya, müzakirə şəraitində keçən bu beynəlxalq tədbirdə 26 məruzə, çıxış dinlənildi. Tədbirin açılışında MEDİA-nın icraçı-direktoru Əhməd İsmayılov, Audiovizual Şuranın sədri İsmət Səttarov, Qarabağ Dirçəliş Fondunun direktoru Rəhman Hacıyevin çıxışlarında çağdaş media tələbləri, bütövlükdə mətbuatın inkişafına yönəlik dövlət siyasətinin istiqamətləri əksini tapırdı. Bir neçə əcnəbi ekspertin qatıldığı bu tədbir Şuşanın azadlıq havasında keçirilir, Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini, istiqbal və istiqlalını istəməyənləri söz tənəsinə tuş edirdi. Forum boyu səslənən fikirlərdə, quru, şablon cümlələrdə, məna axtardığımız çıxışlarda belə ən çox pislənən söz Media Azadlığı oldu.

Açıq diskussiyaların, müzakirələrin keçirildiyi ağ çadıra sanki şəffaf pəncərələrdən Şuşanın azadlıq havası hopurdu. Azadlığı zərrə-zərrə, qram-qram istəməyənlər də bu havanın təsirinə qapılıb bihuş vəziyyətdə peşəkar medianın bütün problemləri arxada qoyacağına ümidlənir, müzakirələrin axınına qatılmağa can atırdılar. Hətta müzakirənin istiqamətini dəyişənlər, sol istiqamətdə fəaliyyət üstünlüklərini isbat etməyə çalışanlar da tapıldı. Feyk xəbərlə oxucu qazanmağı məqbul hesab edənlər milli jurnalistika sistemini Marksın, Engelsin kəlamları, postulatları ilə sarsıtmağa çalışanlar, peşəkar media dəyərlərindən çox-çox uzaqlarda dayananlardır. Foruma qatılan milli jurnalistikamızın mötədilləri bu dəyişkən ab-havanın təsirlərini təcrübələrində dəfələrlə görüb, yaşadıqlarından yeni ideya axtarışlarına baş vurmağı mənasız və nəticəsiz hesab etdiklərindən tövrlərini belə pozmadılar.



Forumda diqqəti çəkən məqamlardan biri Elçin Şıxlının "Qətl günü" romanından sitat gətirdiyi "şairi şairin başını istəyən" məmləkətdə indiki mühitin ştrixlərini verməyə çalışmasıdır. İndi bu məmləkətdə şairi şairin başını istəmir, qələm əhlinin bir hissəsinin sosial media şəbəkələrində didişməsi, söyüşməsi, bir-birinə ağır təhqirlər yağdırması insana baş istəməkdən daha ağır vəziyyət yaradır. Dövrün bəzi qələm əhli qılıncla baş kəsmir indi, bir-birini sözlə güllələyir.

Söz gülləsi isə tüfəngdən açılan atəşdən də betər, ağırdır.

***

Forumun sonunda bir qrup jurnalist M.P.Vaqifin məqbərəsini və Cıdır düzünü ziyarət etdi. Üzü Cıdır düzünə qalxan yolun kənarında əzəməti, ilkinliyi özünə qaytarılan məqbərənin ətrafı hələ də ətrini, rəngini qoruyan güllərlə gözəlləşir. Məqbərəyə yaxınlaşan zaman acı bir qəhər boğur məni. İlk ibtidai təhsilini doğulduğun Qazaxın Daş Salahlı kəndində Şəfi Əfəndidən alan M.A.Vaqifin acı taleyi burda sona çatıb. Diplomatik bacarığı mübahisəli məqamlarla dolu olsa da, Qarabağ xanlığının xarici siyasətini müəyyənləşdirən bu böyük şairin Azərbaycan ədəbiyyatında sadə türkcəni şeiriyyət dili olaraq populyarlaşdırması fakt olaraq qalır.

"Hər oxuyan Molla Pənah olmaz" deyimi isə tarixin süzgəcindən keçib bu günə qədər gəlib çıxıbsa, şairin hələ yüz illər, əsrlər boyu yaşayacağına bir işarədir.

***

Həsrətini çəkdiyimiz Şuşada keçirilən Beynəlxalq Media Forumu bizə nə verdi sualının isə cavabı çoxdur. İlk dəfə tarixdə Milli Mətbuat günü Bakıdan kənarda, Azərbaycanın zəngin mədəniyyət paytaxtında keçirildi. İllər keçəcək, jurnalistika tarixinin araşdırıcıları bu forumu tarixi hadisə kimi dəyərləndirəcəklər. Peşəkar media strukturlarının sosial media şəbəkələrinin imkanlarından yararlanıb peşə dəyərlərini qoruyaraq gələcəyə ötürülməsinin yolları da arandı bu tədbirdə. Dünyanı, bəşəriyyəti narahat edən "fake xəbərlər"in qarşısının alınması, rəqəmsal jurnalistikaya keçid problemləri də müxtəlif aspektlərdən müzakirəyə çıxarıldı. Ən əsası, hər bir dövlətin özünün informasiya siyasəti və informasiya təhlükəsizliyi də gözə alındı. Bəli, dövlətlərin öz milli ordusu, sərhədi, qoşunu olduğu kimi milli jurnalist ordusu da olmalıdır.

İqtidar-müxalifət bölgüsü aparmadan bütün cinahlarda təmsil olunan Azərbaycan jurnalistləri vahid güc mərkəzi olaraq Şuşada bir araya gəldi və birlik nümayiş etdirdi. Ən əsas, vacib məsələ də bu idi, MEDİA-nın rəhbərliyinin bu ağır, çətin işin öhdəsindən gəlməsi isə təqdirəlayiq hadisədir və alqışlanmalıdır.



# Vaşinqton da bölgədə sülh istəyir

## Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılmasına Qərb də dəstək göstərir

**Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib.**

Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Dövlət başçısı bildirib ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir.

Antoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib.Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olunub.

**Görüşün detallarını "Şərq"ə şərh edən siyasi şərhçi Turab Rzayev bildirib ki, bu, Azərbaycan üçün çox əhəmiyyətlidir:**

"Son dövrlər ABŞ və Azərbaycan rəhbərliyi arasında bu cür məktublaşmaların, telefon əlaqələrinin artdığını görürük. Halbuki, öncələr belə sıx əlaqələrin şahidi olmurduq. Bu dəfə əsasən iki məsələ ətrafında fikir mübadiləsi aparılıb. Birincisi, Qarabağ münaqişəsi və Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılmasıdır.

Əlbəttə ki, Vaşinqton da bölgədə sülh istəyir və Avropa İttifaqının bölgədə sülh yaratmaq missiyasını dəstəkləyir. Bu, bizim üçün kifayət qədər uğurlu nəticədir. Çünki Aİ-nin indiyə qədər vasitəçilik etdiyi dörd Brüssel görüşünün hər biri bizim üçün məqbul olub. Digər məsələ isə kommunikasiyaların açılması məsələsidir.

Azərbaycan bu fikrə qarşı deyil. Türkiyə ilə Ermənistan arasında kommunikasiyaların açılması üzrə danışıqlar gedir. Azərbaycan da bu kommunikasiyaları açmaq niyyətindədir. Amma burada bizə maraqlı olan məqam sözügedən kommunikasiyaların Zəngəzur dəhlizini əhatə edib-etməməsidir. Bu dəhliz bizim üçün xüsusi əhəmiyyətə malikdir. Əlbəttə ki, burada da Qərbin dəstək verməsi bizim üçün uğurlu olardı.

Müzakirə olunan ikinci məqam isə enerji məsələsidir. Növbəti beş il ərzində Avropa ölkələri Rusiyadan neft və qazın idxalını dayandırmaq istəyirlər. Aydındır ki, belə olan halda Azərbaycan növbəti illər ərzində qaz ixracını Avropaya iki dəfədən çox artırmağı planlayır.

Həmçinin Avropa ilə enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq mövcud olacaq. Eyni zamanda Azərbaycan tranzit ölkə kimi Türkmənistan və İran qazını, Türkmənistan, İran və Qazaxıstan neftini öz üzərindən Qərbə ötürə bilər. Bu da Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətinin artmasına gətirib çıxaracaq".

**Çimnaz Şahlar**

# İranla Rusiyanın qərarı kağız üzərində qalacaq

## Bir sıra aparıcı ölkələr dollardan imtina etməyə çalışsalar da bunu reallaşdıra bilməyiblər



**İran və Rusiya qarşılıqlı ticarətdə dollardan imtina edib. İki dövlət arasındakı ticarət mübadiləsində ABŞ dolları qəti şəkildə ləğv olunub. İranın İqtisadiyyat və maliyyə naziri Ehsan Xanduzi İran və Rusiyanın ticarət mübadilələrindən dolların çıxarılmasına dair razılaşmanın əldə olunduğunu təsdiqləyib. O, Hindistan, Türkiyə və Çinlə də bu istiqamətdə danışıqların davam etdiyini qeyd edib.**

Ekspertlər isə hesab edir ki, Rusiya və İran arasında ticarət dövriyyəsi böyük olmadığı üçün ABŞ dollarından imtina reallaşsa belə, bu, regiondakı valyuta tələbinə xüsusi təsir etməyəcək.

**İqtisadçı-ekspert Natiq Cəfərli də "Şərq"ə açıqlamasında bu qərarın sadəcə kağız üzərində qalacağını deyib. Onun sözlərinə görə, hər iki dövlət üçün xarici valyuta cəlb etmək prioritet olduğu üçün belə bir addımın tam rellaşacağı inandırıcı görünmür. Bu, ilk belə hal deyil:** "Ehtimal ki, sonuncu da olmayacaq. Bu günə qədər bir sıra aparıcı ölkələr siyasi gərginlikdən doğan səbəblərdən dollardan imtina etməyə çalışsalar da bunu reallaşdıra bilməyiblər.

Hətta illər əvvəl Rusiya ilə Çin arasında bu formatda müqavilə imzalanıb, amma icra edilməyib. Düşünürəm ki, bu cür müqavilələr siyasi xarakterlidir və göstərişə hesablanıb.

İranla Rusiyanın dollardan imtinası ilə bağlı xeyli vaxtdır danışıqlar aparırlar.

Prosesin reallaşacağını düşünsək, bir sual meydana çıxır. Həm rus rublu, həm də İran realı məzənnəsi kifayət qədər oynaq olan valyutalardır. Tez-tez məzənnələr dəyişir. Onlar arasındakı ticarət müqavilələri hansı məzənnə ilə bağlanacaq?

Bu cür vəziyyətdə iş adamları necə müqavilə bağlaya bilərlər? Həmin iş adamı realın, rublun məzənnəsinin oynamasından özünü necə sığortalayacaq. Yaxud da arada məzənnə fərqi yaranan zaman kim kompensasiya edəcək?

O zaman müqavilələri yenidən dollar üzərindən bağlamaq və həmin gün dünya bazarında olan dolların məzənnəsinə uyğun rubl və ya real ilə ödəniş etmək məcburiyyətində qalacaqlar.

Heç bir şübhəm yoxdur ki, sözügedən müqavilə antiqərb xarakterli siyasi bəyanatdır. Reallıq isə odur ki, dünya ticarətinin 70 faizə qədəri dollar üzərindən aparılır. Özəl sektor da təbii olaraq həmişə məzənnə oynaqlığından özünü sığortalamaq istəyir".

Ekspertin sözlərinə görə, belə bir situasiyada hansısa ölkələrin ticarət mübadiləsində ABŞ dollarından imtina etmək heç bir ölkə üçün asan məsələ deyil: "Çünki qəbul olunmuş ticarət qaydaları, əmtəə bazarında müqavilələr dollarla hesablanırsa, dollardan imtina etmək çox çətindir. Həm də iki ölkə dollardan imtina edib öz milli valyutaları ilə ticarət etsələr belə, onların məzənnəsi yenə də dollar üzərindən müəyyənləşməlidir".

**Şəymən**



# İlham Əliyev Paşinyanla Tbilisidə görüşə bilər

## Ekspertlər hesab edir ki, dövlət başçılarının vasitəçisiz danışıqları sülh prosesində dönüş yaradacaq

İsmayıl Qocayev

**Azərbaycan və Ermənistanın rəsmi nümayəndələri iki ölkənin liderlərinin görüşü barədə danışıqlar aparır. Bu barədə Ermənistanın hakim "Vətəndaş müqaviləsi" partiyasının üzvü, Ermənistan parlamentinin xarici əlaqələr üzrə komissiyasının rəhbəri Eduard Ağacanyan bildirib.**

Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüşün keçirilməsi planlaşdırılır. Lakin konkret tarixlər müəyyənləşməyib. Prezident İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan sonuncu dəfə mayın 22-də Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə iki ölkə arasında münasibətlərin normallaşdırılmasına dair danışıqlar aparıblar. Mayın 23-də dövlət başçıları sərhədlərin delimitasiyası və təhlükəsizliyi üzrə komissiyaların yaradılması haqqında fərmanlar imzalayıblar. Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Ölkə rəhbəri bildirib ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir. Bir sıra ekspertlər hesab edirlər ki, Azərbaycan və Ermənistan rəhbərlərinin üçüncü tərəf olmadan, vasitəçisiz görüşü müəyyən məsələlərin həllinə töhfə verə bilər. Liderlərin görüş ehtimalını "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, bütün müharibələrdən sonra tərəflərin təmaslarını vasitəçilərin iştirakı ilə təşkil ediblər. Professor bildirib ki, Azərbaycan-Ermənistan danışıqlarında Rusiya, Türkiyə və Avropa İttifaqı vasitəçilik edir: "Lakin düşünürəm ki, növbəti görüşlər vasitəçi olmadan da keçirilə bilər. Ermənistan görüş məkanı kimi Türkiyəyə razılıq vermir. Amma liderlər Tbilisidə görüşə bilərlər. Cənubi Qafqazda hər iki dövlətə normal münasibəti olan yeganə ölkə Gürcüstandır. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan görüşlərə və danışıqlara hazırdır. 5 şərtimizi təklif etmişik və Paşinyan da qəbul edib. Ermənistanın baş nazirinə təzyiqlər çoxdur. Qərbin təzyiqləri azalsa da, Rusiya və İranın təzyiqləri davam etməkdədir. Nəzərə alaq ki, revanşist qüvvələr də İrəvanın siyasətinə mənfi təsir göstərirlər. Amma Paşinyan onu da anlayır ki, Ermənistanın problemlərinin həlli üçün Azərbaycanla danışıqlar, ikili təmaslar çox vacibdir. Vasitəçilərlə olan görüşdə tərəflər istər-istəməz məsələləri axıra qədər müzakirə edə bilmirlər. Ermənistan tərəfi kənar vasitəçilərin bu işə mane olacağından ehtiyat edir. Ona görə də ikili təmaslar çox vacibdir. Belə görüş sınaqdan çıxarılıb. Azərbaycan və Ermənistan XİN başçıları iki dəfə görüşüblər. Məkan çox önəmli olmasa da, görüş yeri kimi Moskva və İstanbul istisnadır. Tbilisi isə hər iki tərəfin görüş üçün razılaşdığı şəhərdir. Hər halda bu və ya digər formada danışıqlar davam etməlidir. Müharibədən xeyli vaxt keçib və Bakının səbri tükənməkdədir. Üçtərəfli bəyannamənin 1-ci, 4-cü və 9-cu bəndləri hələ də icra olunmayıb. Gün ərzində 9 təxribat baş verirsə, bunun 7-si Qarabağdakı erməni quldurları tərəfindən törədilir. Bu fakt Azərbaycanın səbr kasasını daşırmağa kifayət edir".

# Meymunçiçəyi koronavirus kimi geniş yayılmayacaq

## Xüsusilə uşaqları bu xəstəlikdən qorumaq lazımdır



**Avropa İttifaqı (Aİ) meymunçiçəyi virusuna qarşı peyvənd üçün Danimarkanın "Bavarian Nordic" biotexnoloji şirkətinə icazə verib. Aİ Komissiyasından verilən məlumata görə, meymunçiçəyi peyvəndi üçün "Bavarian Nordic" şirkətinə marketinq icazəsi verilib.**

Qeyd edək ki, indiyədək Aİ-nin 27 ölkəsində 8,697 yoluxma halı qeydə alınıb. Yoluxma halı ən çox İspaniya, Almaniya və Fransada, ən az isə Bolqarıstan, Latviya və Slovakiyada aşkarlanıb.

Ümumdünya Səhiyyə Təşkilatı iyulun 23-dən meymunçiçəyi virusunu Beynəlxalq İctimai Sağlamlıq Fövqəladə Vəziyyəti elan edib.

**İnfeksionist Mədinə Fərəcovanın sözlərinə görə, sürətlə yayılmağa başlayan "Meymunçiçəyi" xəstəliyi çiçək virusu ailəsindəndir:** "Tarixin ən qorxunc bəlası hesab olunan Çiçək xəstəliyinə bənzəyən bu virusa yoluxan insanlar xəstəliyi daha yüngül keçirir. Virus bəzən suçiçəyi xəstəliyinə bənzəyir və bir neçə həftə ərzində öz-özünə yox olur.

Meymunçiçəyi normalda tropik Afrika meşələrində, gəmiricilərdə tapılan bir virusdur. İlk dəfə insanda tapılıb. Eyni şəkildə COVID-19-da da belə olmuşdu. Normalda yarasalarda görülən bir virus idi, ancaq ilk dəfə insanda tapılmışdı. Zoonoz bir infeksiya sayılır.

Çiçək virusu və digər çiçək virusu ailəsindən fərqli olaraq əsas fərqləndirici xüsusiyyəti limfadenopatiyanın olmasıdır, yəni limfa düyünlərinin böyüməsinin müşahidə edilməsidir.

Xəstəliyin inkubasiya dönəmi Dünya Səhiyyə Təşkilatının bildirdiyinə görə, 5 ilə 21 gün arasında dəyişməkdədir.

Xəstəliyin əlamətləri temperatur, əzələ sümük, baş ağrıları, limfadenopatiya (limfa düyünlərinin böyüməsi), bədən səpgilərinin əmələ gəlməsi ilə özünü göstərir.

Poxviridae ailəsinin digər nümayəndələrindən fərqli olaraq bədən səpgilərinin özəlliyi daha böyük ölçüdə olması, içərisinin irinli maye ilə dolu olması və ətrafının hiperemik haşiyə ilə əhatələnmiş olmasıdır. İrinləmə dövründə isə xəstənin vəziyyəti nisbətən ağırlaşır və yüksək qızdırma, toksiki şok baş verir, xəstə özünü çox narahat hiss edir. Sağalandan sonra isə səpki yerində çapıqlar qalır".

**İnfeksionistin sözlərinə görə, xəstəlik COVID-19 kimi mortal, yəni ölümcül deyil. Spesifik bir müalicə metodu yoxdur, ancaq bu istiqamətdə müxtəlif araşdırmalar aparılır:** "İrəli sürülən bir sıra antiviral müalicələr var ki, meymunçiçəyinin müalicəsində müsbət effekt verib. Hələlik xəstəliyə qarşı dəstək müalicəsi aparılır. Çiçək virusu ailəsindən olduğu üçün çiçək virusuna qarşı olan peyvəndin meymunçiçəyinə qarşı qoruduğu qeyd olunur.

Çiçək virusu 1980-ci ildən sonra dünyadan tam eradikasiya edildiyinə, yəni tam yox olduğuna görə çiçək virusuna qarşı peyvənd 1980-ci illərdən sonra aparılmır. Məhz bu səbəbdən 80-ci illərdən sonra doğulmuş şəxslər meymunçiçəyinə yoluxma baxımdan risk kateqoriyasına daxildir. 80-ci illərdən əvvəl doğulanlarda isə yoluxma faizi çox aşağıdır. İllər əvvəl çiçək peyvəndi olunan şəxslərin qanında antitellər nə dərəcə qoruyuculuq qabiliyyətində olduğunu demək çətindir. Amma ümumilikdə həmin şəxslər meymunçiçəyinə qarşı da peyvəndli hesab olunur deyə, yoluxsalar belə yüngül keçirəcəklər".

**Həkimin fikrincə, ÜST meymunçiçəyini pandemiya elan etmiş olsa belə, COVID-19 kimi geniş yayılmayacaq:** "Ancaq immunsupressiv xəstələr, immuniteti aşağı olan, hematoloji, onkoloji, qaraciyər, böyrək və s. kimi problemləri olan, transplantasiya edilmiş xəstələr və xüsusilə uşaqları bu xəstəlikdən qorumaq lazımdır: "Bədənin hər hansısa bir yerində səpgi əmələ gəldikdə, bədən hərarətinin yüksəlməsi müşahidə edildikdə, limfadenopatiya (limfa düyünlərinin böyüməsi) müşahidə edilərsə, mütləq həkimə müraciət edilməsi, infeksion xəstəliklərinin mütəxəssisinə müraciət edilməsi məsləhət görülür".

**Şəymən**



# Türkiyə PUA-larına iki sürpriz təklif

## "Putin deyir ki, gəlin birlikdə işləyək"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının toplantısında Türkiyədə istehsal olunan PUA-lar üçün xaricdən gələn təkliflərdən danışıb. Ərdoğan deyib ki, türk silahları üçün xaricdən iki mühüm təklif gəlib.**

"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, Ərdoğan Rusiya və Birləşmiş Ərəb Əmirliklərinin PUA istehsalında maraqlı olduğu mesajını verib. Ərdoğanın "Putin deyir ki, gəlin birlikdə işləyək. Birləşmiş Ərəb Əmirlikləri burada PUA fabriki tikməyi təklif edir" dediyi öyrənilib.

**Türk silahları dünyanın gündəmində**

Türkiyə PUA-ları dünya mediasının gündəmindən düşmür. Rusiyanın işğalı altında olan Ukraynada müharibənin gedişatını dəyişdirən və Azərbaycanın 2020-ci ildə erməni qüvvələrini məğlub etməsində əsas amil olan "Bayraktar" PUA-ları növbəti dəfə manşetlərdə yer alıb. Dünya mediası Türkiyənin və xüsusilə "Bayraktar TB2"nin istehsal etdiyi silahlara səhifələrini və ekranlarını açmağa davam edir. İngiltərənin "The Telegraph" qəzeti "Ukraynanın səfərbərliyinə kömək edə biləcək Türkiyənin pilotsuz təyyarələrini kim təsəvvür edirdi?" adlı xəbər dərc edib. "Bayraktar TB2" pilotsuz uçuş aparatlarının istehsal edildiyi fabriki gəzən qəzetin müxbiri Natalya Vasilyeva Ukraynanın Rusiya işğalına qarşı əldə etdiyi ən mühüm qələbələrdən bəzilərində Türkiyənin pilotsuz təyyarələrinin əsas rol oynadığını yazıb. "Telegraph" müxbiri "Baykar Teknoloji" İdarə Heyətinin sədri Selçuk Bayraktarla fabrikdə müsahibə alaraq 2007-ci ildə başlayan macəranı çatdıran və Səlcuq Bayraktarın qurduğu cümləni vurğulayaraq, "O vaxt heç kim belə bir texnologiya şirkətinin olacağını düşünmürdü. Türkiyədən bir dünya markası çıxacaqdı".

**10 ildən az zamanda dünya fenomeninə çevrildi**

Selçuk Bayraktarın texnologiya şirkətini 10 ildən az bir müddətdə qlobal fenomenə çevirdiyini vurğulayan "The Telegraph" nəşrinin fotoqrafı "Bayraktar TB2" fabrikinin yalnız müəyyən hissəsini çəkməyə icazə verildiyini diqqətə çatdırıb. "Baykar Teknoloji"nin rəsmisi Haluk Bayraktar Səlcuq Bayraktardan bir neçə gün sonra Amerikanın "CNN International" kanalına çıxıb. Türk PUA-larının Ukraynaya tədarükünü davam etdirəcəklərini bildirən Haluk Bayraktar "Bayraktar TB2"nin heç vaxt Rusiyaya satılmayacağını bildirib.

**Silah sənayesinin güc mərkəzi -Türkiyə**

ABŞ-ın nüfuzlu "Wall Street Journal" qəzeti "Dronlar, pilotsuz dəniz vasitələri və qatil robotlar Türkiyəni silah sənayesi üçün güc mərkəzinə çevirdi" başlığı ilə böyük bir məqalə yayımlayıb. Türkiyənin cəmi 20 ildə silah istehsalında qlobal oyunçuya çevrildiyini yazan "Wall Street Journal" "Türkiyənin silah istehsal edən bir güc mərkəzinə çevrilməsi layihəsi Prezident Rəcəb Tayyib Ərdoğan üçün bəhrəsini verməyə başladı" ifadəsini yazıb.

**İsmayıl**



**"Qarabağda Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutan silahlı erməni birləşmələrinin sonu yaxınlaşır".**

Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Analitik bildirib ki, Ermənistan öz silahlı qüvvələrini buradan çıxardıqdan sonra "müdafiə ordusu" adı altında terrorçu qüvvələrin saxlanılacağını deyir. Ekspertə görə, əgər bu baş verərsə, terrorçu qüvvələrə qarşı anti-terror əməliyyatı keçirmək Azərbaycanın legitim hüququ olacaq: "Anti-terror əməliyyatına Rusiya sülhməramlı qüvvələri mane ola bilməz. Üçtərəfli sazişin müddəti bitdikdən sonra Rusiya sülhməramlı qüvvələri Qarabağdan çıxmağa məcbur olacaq. Azərbaycan situasiyanı ona uyğun idarə etməlidir. Ermənistan silahlı qüvvələrinin qalıqları torpaqlarımızdan çıxacaqsa, başqa ad altında yeni silahlı birləşmələrin qalması Azərbaycanın suverenliyi və təhlükəsizliyi üçün təhdiddir. Separatçıların lideri Araik Arutyunyan da yolun sonuna çatdığının fərqindədir. Onun Qarabağı tərk edəcəyi, hakimiyyətə qarşı müxalif qüvvələrə qoşulacağı gözlənilir. Reallıq odur ki, Qarabağda situasiya nə Cənubi Osetiya, nə də Abxaziyaya bənzəyir. Rusiya burada qala bilməyəcək".

# Arutyunyanın da sonu çatır

## Rus sülhməramlıları anti-terror əməliyyatlarına mane ola bilməz

**İsmayıl**

İsmayıl Qocayev

# Xankəndiyə, Xocalıya doğru tələsməliyik

## Qarabağda ermənilər təxribatların sayını artırıb

**Ermənistan tərəfi yenə təxribatlarından əl çəkmir. Ötən gün erməni silahlı birləşmələri 9 dəfə təxribat xarakterli silahlı insident törədiblər. Müdafiə Nazirliyi xəbər verib ki, təxribatların ikisi Azərbaycan-Ermənistan dövlət sərhədində baş verib. Erməni hərbçiləri Laçın rayonunda yerləşən bölmələrimizi atəşə tutublar.**

Digər 7 insident isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən törədilib. Azərbaycan Ordusunun Tərtər, Ağdam, Xocavənd və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərimiz müxtəlif çaplı silahlardan atəşə məruz qalıb. Bütün hallarda Ordumuzun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, ermənilər sayı-hesabı dəqiq bilinməyən itkilərə rağmən, dinc oturmaq istəmirlər.** Partiya rəsmisinin sözlərinə görə, Nikol Paşinyanı acizlikdə və xəyanətdə ittiham edən erməni ictimaiyyəti bir tərəfdən Qarabağa əsgər göndərilməsinə qarşı çıxır. Digər tərəfdən isə Azərbaycan torpaqlarına iddiadan əl çəkmirlər: "Qəribəsi budur ki, hətta sarsıdıcı zərbələrdən sonra belə, nə sadə əhali, nə müxalifət, nə də iqtidar köhnə "bayatı"lardan imtina etmək istəyir. Əlbəttə, prosesdə Rusiya faktorunu nəzərdən qaçırmaq olmaz. Rusiya bölgədə gərginliyi saxlamaq üçün əlindən gələni edib və edəcək. Bu mənada ermənilərin Rusiya sülhməramlılarına arxayın olaraq özbaşınalıqlar etməsi təəccüblü görünmür. Digər tərəfdən, sülhməramlıların Qarabağda anti-terror əməliyyatı üçün təlimlərə başlaması da suallar doğurur. Əgər sülhməramlılar Qarabağdakı terrorçuların zərərsizləşdirilməsində, yaxud bölgədən çıxarılmasında maraqlıdırsa, o halda niyə Laçın dəhlizinə nəzarət ciddi şəkildə aparılmır, yaxud Qarabağa yerləşdirilən ermənilər yoxlanılmır?!".



Revanşa can atan ermənilərlə hədə dilində danışsaq da, onlara söz təsir eləmir

**S.Əsədli vurğulayıb ki, bütün bunlar 44 günlük müharibədən sonra revanşa cəhd edən erməniləri şirnikləndirən əsas amillərdəndir:** "Ümumilikdə görünən budur ki, ermənilər fəallaşıblar. Qarabağda yeni fitnə-fəsad yaymağa başlayıblar. Revanşa can atan ermənilərlə hədə dilində danışsaq da, onlara söz təsir eləmir. Yaxşı olar ki, azərbaycanlıların Xankəndi, Xocalı və digər ərazilərə qaytarılması prosesi başlansın. Bu məqam 10 noyabr razılaşmasında nəzərdə tutulub. Təkid etməyə haqqımız var. Bu cür etsək, təşəbbüs bizim tərəfimizdə olacaq, ermənilər heç nə edə bilməyəcəklər. Digər istiqamətlərdə də işlər getməlidir. Ermənilər şərtlərimizə boyun əyməli, mövcud reallığı qəbul etməli, ya da açıq-aşkar bizimlə müharibəyə qalxmalıdırlar. Hər iki halda nəticə bizim xeyrimizə olacaq".

# ABŞ sülh prosesində iştirakçılığını artırmaq istəyir



## Antoni Blinkenin Bakıya və İrəvana telefon zəngi üç kontekstdə diqqət çəkir

**İyulun 25-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib.**

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib. Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirib. Dövlət başçısı bəyan edib ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir. Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib. Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olunub. Sonra dövlət başçısı humanitar məsələlərə toxunub. Birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu deyib. Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə məlumat verilməməsinə diqqəti çəkib. Telefon danışığı zamanı ikili əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi də aparılıb. Məlumat üçün deyək ki, dövlət katibi Antoni Blinkenlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında da telefon danışığı olub. Blinken bildirib ki, Paşinyanla Ermənistan və Azərbaycanın regionda sülhə nail olmaq üçün tarixi imkanlara sahib olması barədə səmərəli müzakirəsi olub: "Mən Ermənistanın Azərbaycan və Türkiyə ilə irəliyə doğru atdığı müsbət addımları yüksək qiymətləndirirəm. Region ölkələri arasında müzakirələr Cənubi Qafqazda davamlı sülhün açarıdır".

**Blinkenin Azərbaycan və Ermənistan liderlərinə telefon zəngini "Şərq"ə şərh edən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Blinkenin zəngi üç kontekstdə diqqət çəkir. Analitik vurğulayıb ki, əsas məqam Avropa İttifaqının vasitəçiliyinin müəyyən qədər arxa plana keçməsidir:** "Vaşinqton Brüssel görüşlərini dəstəkləyir və Azərbaycan-Ermənistan münasibətlərində Aİ üzərindən iştirak edirdi. Hərçənd, Lavrovun Ankara səfərindən və ölkə rəhbəri İlham Əliyevin Zəngəzur dəhlizinin açılmasını regional sülhün əsas komponenti elan etməsindən sonra Brüsseldə dəhlizin "yol məntiqi" ilə açılmasına dair şifahi razılaşmanın qüvvədən düşməsi müşahidə olunur. Dolayısı ilə Brüsselin prosesdə iştirakçılıq payının azalması görünür. Bu situasiya fonunda ABŞ prosesdə birbaşa iştirakını artırmaq niyyətindədir. Tbilisidə XİN rəhbərlərinin keçirilən görüşü də bunun tərkib hissəsi idi. Digər yandan Cənubi Qafqazda Ankaranın Moskva ilə birlikdə fəaliyyətinin yenidən aktuallaşması - Lavrovun Ankara-İrəvan-Tehran-Bakı marşrutu üzrə səfəri bu prosesi aktivləşdirdi. Türkiyə lideri R.T.Ərdoğan, Putin və Rəisinin Tehran zirvəsinin bütün fikir ayrılıqlarına rəğmən, bölgədə "3+3" formatının inkişafına mümkün təsiri Aİ-nin proseslərdə iştirakını zəiflətdiyi kimi, Vaşinqtonun da rıçaqlarını azaldır. ABŞ Bakı və İrəvan arasında əvvəldən irəli sürdüyü "ikitərəfli format"la bölgəyə müdaxilə etmək, Rusiyanı oyundankənar vəziyyətə salmaq niyyətindədir".

**Ekspert vurğulayıb ki, Blinkenin zəngi son proseslər fonunda Vaşinqton və Moskvanın Qarabağ üzərindən apardığı nüfuz müharibəsinin kəskinləşdiyini göstərir:** "Uilyam Börnsun İrəvan səfəri, ardınca Narışkinin İrəvan və Bakı ziyarəti savaşın kəşfiyyat qatında da getdiyinin təsdiqidir. Bu mübarizə alternativlərin olması, xüsusilə Moskvanı öz vasitəçiliyi ilə əldə edilən razılaşmaların icrasına sövq etməsi baxımından sərfəlidir. Hərçənd, İrəvanın da alternativ imkanından öz maraqlarının təmin edilməsi məqsədilə istifadə edə biləcəyi gerçəyi də var.

Burada əsas məsələ Bakının maraqları, xüsusilə bölgədəki hazırkı situasiya fonunda bu maraqların hansı cəbhədə təmin edilməsidir. Vaşinqton Azərbaycanın "ikitərəfli format" istəyini dəstəkləyir. Amma Zəngəzurun "dəhliz məntiqi" ilə açılması, həmçinin, Ankara-Moskva ikilisinin bölgə üzərindəki planları Rusiya masasını aktuallaşdırıb. Ankara-Bakı ikilisi bu prosesdə "saatlarını yoxlayaraq" hərəkət edir. Bu baxımdan, indiki situasiyada Vaşinqtonun əsas məsələlərdə - kommunikasiyanın açılması, sərhədin müəyyənləşməsi, sülh sazişi və s. iştirakçılığı ehtimalı zəifdir. Lakin Azərbaycan ABŞ və Aİ-nin proseslərdə bu və ya digər formada iştirakında da maraqlıdır. Bu iştirakçılıq xüsusilə humanitar məsələlərdə həlledici ola bilər. Bakı və İrəvanın zənglə bağlı rəsmi məlumatında "əsirlərin qaytarılması və itkin düşənlərin taleyi ilə bağlı məsələnin" müzakirəsinə dair məqamın əks olunması ABŞ-ın humanitar prosesdə iştirakında ortaq mövqenin olduğunu göstərir. Mümkündür ki, Amerika bölgədə iştirakını aktivləşdirmək üçün "əsir və itkin düşmüş"lərlə bağlı irəliləyişə nail olmağa çalışacaq. Bu, Bakının I Qarabağ müharibəsində itkin düşənlərin taleyi və kütləvi məzarlıqlar haqda məlumat əldə etməyə imkan verə bilər".

**İsmayıl Qocayev**




# Ortaq nəqliyyat layihəsi gərginliyi azaldacaq

## Rusiya və İran İrəvanın yalvarışlarına rəğmən, şimal-cənub nəqliyyat dəhlizində Ermənistanı deyil, Azərbaycanı seçdi

**Rusiya 2030-cu ilə qədər İrana 1.5 milyard dollar kredit ayırmağı planlaşdırır. Kreditin bir hissəsi Astara-Rəşt dəmiryolunun tikintisinə xərclənəcək. Azərbaycan bir neçə il əvvəl bu dəmiryolunun tikintisi məqsədilə İrana 500 milyon dollar kredit verməli idi.**

Qərbin İrana qarşı sanksiyaları işi uzatdı. Çünki İrana bank köçürmələri mürəkkəbləşdi. Kreml isə tələsir. Ukraynada davam edən işğalçı müharibə fonunda Rusiyanın Avropaya yolu kəsilib. Moskva alternativ yollar axtardığı üçün şimal-cənub nəqliyyat dəhlizinə önəm verməyə başlayıb. Rusiya və İran prezidentləri bugünlərdə Tehranda bu mövzunu geniş müzakirə ediblər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Şimal-Cənub nəqliyyat dəhlizi Azərbaycanın da faydasınadır. Ekspertə görə, tranzitdən gəlir əldə edəcəyik və nəqliyyat dəhlizi Azərbaycanın bölgədə rolunu daha da artıracaq:** "Azərbaycanın Rusiya və İranla münasibətlərində mövcud bir sıra siyasi gərginliklərə rəğmən, ortaq nəqliyyat layihəsi yumşaldıcı rol oynayacaq. Rusiya və İran İrəvanın yalvarışlarına rəğmən, şimal-cənub nəqliyyat dəhlizində Ermənistanı deyil, Azərbaycanı seçdi. Rusiyanın krediti ilə 164 kilometrlik dəmiryolu xətti çəkilməlidir. Hazırda Astara ilə Rəşt arasındakı məsafədə yüklər avtobomil nəqliyyatı vasitəsilə çatdırılır ki, bu, sürəti azaldır. Rusiya bu yolla il ərzində 30 milyon ton yük daşımağı planlaşdırır. Bu marşrutdan Hindistan da istifadə etməyi planlaşdırır. Hazırda Hindistanın Mumbay şəhərindən Rusiyanın Sankt-Peterburq şəhərinə yüklər dəniz və Süveyş kanalı yolu ilə 30-45 günə çatdırılır. Şimal-cənub xətti işə düşdükdən sonra isə məsafə 15-24 günə qədər qısalacaq".

**İsmayıl**



# Heç kimi məcburi vəzifəyə təyin etmirlər

## İşi bacarmayan icra başçıları özləri geri çəkilməlidirlər

**Prezident İlham Əliyev bir neçə rayona yeni təyin etdiyi icra başçılarını qəbul edərkən həm onlara, həm də bütün icra başçılarına, dövlət məmurlarına ciddi tapşırıqlar verdi. Dövlət başçısı qazilər və şəhid ailələri ilə bağlı yerli məmurlara sərt xəbərdarlıq etdi.**

Ölkə rəhbəri yeni başçılara düzgün işləməyən rayon rəhbərlərinin təcrübəsini xatırladaraq onlara korrupsiyaya yol verməməyi, başçılıq etdikləri rayonun problemlərinin həllinə çalışmağı tapşırdı. Prezident icra başçılarına çağırış edərək, problemlərin yerlərdə, yerindəcə həll olunmasının vacibliyindən danışdı: "Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, demək olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq".

**Dövlət başçısının növbəti xəbərdarlığını "Şərq"ə dəyərləndirən millət vəkili Razi Nurullayev bildirib ki, problemlərin yerində həll olunması ən düzgün variantdır.** Deputatın sözlərinə görə, əgər problemlər və şikayətlər Prezident Administrasiyasına, Milli Məclisə daxil olursa, demək ki, yerlərdə həll edilmir: "Yerlərdə problemlər ya az sayda həll edilir, yaxud yarıtmaz səviyyədə, yarımçıq çözülür. Məsələ ondadır ki, yerlərdə nəinki problemlər həll edilir, əksinə, sayları daha da çoxaldılır. Əgər bir gündə 10 məsələ həllini tapırsa, ən azı 50 problem üzə çıxır. Özü də problemlər sadə vətəndaşlara, iş adamlarına, statusundan asılı olmadan hər kəsə yaradılır. Problemlər artan xətt üzrə gedir. Söhbət ancaq rayonlardan yox, həm də şəhərlərdən gedir. Bakının bütün rayonlarında çətinliklər var. Hər yerdə, bütün səviyyələrdə problemlər özünü göstərir və onları sadəcə icra hakimiyyətləri yaratmır. Müxtəlif qurumlar böyük ölçüdə problem çıxarırlar. Cənab Prezident hər dəfə xəbərdarlıq etdikdə, müəyyən zaman üçün məsələ düzəlir. Bir müddət sonra eyni təfəkkür, yanaşma və qanun pozuntuları ortalığa çıxır. Dövlətin müvafiq orqanları, ölkə rəhbərinin təyin etdiyi şəxslər üzərlərinə götürdükləri məsuliyyəti dərk etməlidir. Kimsə bacarmırsa, özü imtina etsin, yaxud vəzifədən əl çəksin. Heç kimi məcburi qaydada vəzifəyə təyin etmirlər, üzərinə məsuliyyət yükləmirlər. Əksəriyyət öz arzusu, istəyi ilə, hətta qurban kəsməklə, Allaha yalvarmaqla vəzifə tələb edir, hansısa posta iddialı olur. Yəni bütün vasitələrdən istifadə edirlər ki, vəzifəyə sahib olsunlar. Anlamırlar ki, vəzifə onlara özləri üçün, şəxsi varidatlarını artırmaları üçün verilmir".

**Parlament üzvü vurğulayıb ki, Prezidentin təyin etdiyi məmurlar dövlət başçısının etimadını doğrultmalıdır:** "Əgər doğrultmursa, ciddi problemdir və bağışlanmazdır. Nazirlər, komitə rəhbərləri və onların müavinləri, digər dövlət məmurları yerlərdə qəbullar keçirirlər, vətəndaşların problemlərini dinləyirlər. Sonra həmin qurumlar elan edirlər ki, 50 nəfər qəbul edildi və 40 nəfərin problemi yerindəcə həll olundu, 10 məsələ aidiyyəti üzrə nəzarətə götürüldü və s. Necə olur ki, bölgələrə müvəqqəti səfər edən nazirlər, komitə rəhbərləri yüzlərlə problemi yerindəcə həll edə bilir, amma yerli qurumlar, icra hakimiyyətləri vətəndaşların problemlərini illərlə saxlayırlar?! Belə çıxır ki, ya nazirlər yerlərdəki problemləri qanunsuz şəkildə həll edirlər, yaxud da yerli məmurlar yerində deyil. Məsələ bu qədər sadədir".

**İsmayıl Qocayev**

# "İntiharların kökü kəsilməlidir"

**Ləman Ələşrəfqızı:**
"Dövlət funksionerləri öz vəzifə borclarını dərk etdikləri halda problemlər də azalacaq"

**Aygün Muradxanlı:**
"Qazilər üçün ortaq cəmiyyətlər yaradılmalıdır"

**Sevinc Fədai:**
"İdeoloji boşluğu doldurmağa, bu sahədə ciddi və sistemli şəkildə çalışmalara ehtiyac var"







**Tərtər Rayon İcra Hakimiyyətinin qarşısında intihara cəhd olub. Rayon sakini İlqar Vəliyev dünən səhər saatlarında özünü yandırmaq istəyib. Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupunun baş inspektoru, polis baş leytenantı Aslan Qiyaslı məlumat verib. Onun sözlərinə görə, intihara təşəbbüs dünən səhər saat 8 radələrində baş verib: "Polis əməkdaşları cəhdin qarşısını alıb".**

**Bunun üzücü xəbər olduğunu deyən tanınmış telejurnalist Ləman Ələşrəfqızı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycanda intihar halları artır:** "Medianın İnkişafı Agentliyi mətbuat subyektlərini məsələ ilə bağlı xəbərlərin paylaşılmasında diqqətli olmağa çağırıb. Bu müraciətin jurnalistlərdən əvvəl aidiyyəti dövlət məmurlarına edilməsi daha arzuolunandır. Jurnalist hadisə baş verəndən sonra onu xəbərə çevirib, yayandır. Lakin axı bu suisidlərə yol açan səbəblər var. Məsələn, sonuncu özünü yandıran qazinin intiharından əvvəl etdiyi müraciətə baxıldıqda adamın canına qıymasının səbəbi məlum oldu. Səbəb icra başçısının harınlığı, qaziyə hansısa formada yardım etməməsi idi. Problemləri yığılıb artdı, çıxılmaz vəziyyətdə qaldı və sonda intiharı seçdi. Hər dəfə bənzər hadisələrlə bağlı cinayət işi qaldırılsa da, qeyri-müəyyən bir formada yekunlaşır. Yəni özünü öldürmə həddinə çatdırma maddəsi ilə başladılan cinayət işlərində birmənalı olaraq, günahkar qismində bir kəs cəzalandırılmır. Azərbaycanda xüsusilə suisidlərin artmasına təəssüf edirəm. İntiharların kökü kəsilməlidir. Düzdür, ən inkişaf etmiş ölkələrdə belə özünü öldürmə faktları mövcuddur. Adamlar var, toxluğundan intihar edir. Amma cəmiyyətimizdə bu ehtimal mümkün deyil. Canına qıymaq sıradan bir hadisə sayılmır. Adicə insan mətbəxdə soğan doğrayanda bir anlıq bıçağın qəfil əlini kəsə biləcəyini fikirləşir. Düşünülməsi belə adamın ətini ürpəşdirir. Yəni can o qədər şirin nemətdir ki, bir bıçağın da dərini zədələməsini istəməzsən. Amma o insanlar necə bir psixoloji həddə gəlib çatırlar ki, adam özünə od vurur. Ona görə də çağırışlar həmkarlarımızdan öncə oturduqları kürsünün, vəzifənin, verilən səlahiyyətin həddini bilməli olan məmurlara edilməlidir. Vətəndaşı dinləməyi, problemini həll etməyi anlamalıdır. Düşünürəm ki, dövlət funksionerləri öz vəzifə borclarını dərk etdikləri halda problemlər də azalacaq. Məsələn, zamanında bir yazım oldu. Yaponiyada "Aokigahara meşəsi" intiharlar meşəsi idi. Kim özünü öldürmək istəyirdi, oraya gedirdi. Deyirdilər ki, hər hansı bir bədii əsərin təsirindən də adamlar öz canına qıya bilirlər. Azərbaycanda isə zənn etmirəm ki, kimsə kitab oxuyub, intihara təşəbbüs göstərsin. Sadəcə məsələ problemlərin çoxluğudur. Suisidlərə açılan yolun qarşısı alınmalıdır. Jurnalist yazsa da, yazmasa da, intihar baş verir".

**Peşəkar jurnalist Aygün Muradxanlı da diqqətə çatdırıb ki, ölkədə vətəndaşların sosial vəziyyətləri çox aşağıdır:** "Ona görə ki, məmurlarımız vəzifə səlahiyyətlərini yerinə yetirmirlər. Azərbaycanın qanunvericiliyinə uyğun, vətəndaşların sosial-iqtisadi cəhətdən dəstəklənməsi üzrə çox sayda qərarlar qəbul olunur. Amma icra edilmir. Bu sahədə özbaşınalıqlar mövcuddur. Vətəndaşlar öz haqlarını funksioner qapılarında arayıb, süründürməçiliklə qarşılaşırlar. Əslində onların dövlət xidmətçilərinə müraciəti yaşamaq şərtlərini düzəltmək, həyat uğrunda mübarizə aparmaq məqsədi güdür. Amma nəticə görmədikdə əmin olurlar ki, ölkədə vətəndaşın səsini eşidəcək struktur yoxdur. Cəmiyyətin problemləri ilə məşğul olacaq dövlət qurumları sadəcə kimlərinsə özəl müəssisələrinə çevrilib. Özləri üçün qapalı cəmiyyət yaradıblar. Vətəndaş məmurun onunla qayğı ilə maraqlandığını hiss etsə, problemi həll etməyə söz versə, o, intihara əl atmaz. Funksionerlər isə heç bir halda vətəndaşla təmasa girmirlər və sanki bunu əskiklik hesab edirlər. Sadəcə biabırçılıqdır. Həmin o kürsüdə əyləşən vəzifəli şəxslər məmuriyyətin fəlsəfəsində nə dayandığını anlamırlar. Prezident İlham Əliyev də xəbərdarlıq edib ki, məmurlar xalqın xidmətçiləridirlər. Məmur vətəndaşın qulluqçusu deməkdir. Lakin aidiyyəti adamlar özünü kiçik padşah zənn edir, vətəndaşlara isə rəiyyət kimi baxırlar. Azərbaycanda qazilərlə bağlı intihar halları görürük. Bu, sadə məsələ deyil. Onların özünəqəsd hallarında psixoloji vəziyyətinin önəmli rol oynadığını qəbul edirəm. Amma psixoloji reabilitasiyaları ilə də bağlı hökumət məşğul olmalıdır. Qazilər üçün ortaq cəmiyyətlər yaradılmalıdır. Bir an tək buraxmalı deyillər. Lakin vətən yolunda sağlamlığından keçən insanlar tamamilə diqqətdən kənar qalırlar. Yəni sosial cəhətdən son dərəcədə zəif olan insanların bir də müharibədən aldığı travmalardan sonra qayğısız qalması dövlət, cəmiyyət adına ayıbdır. Həqiqətənmi bu qədər məmur ordusunu yağ-bal içində yaşadan hökumət bir neçə min qazinin sosial rifahını təmin etmək iqtidarında deyil?! İnandırıcı gəlmir. Hesab edirəm ki, hakimiyyətin sosial prinsipi pozması, aztəminatlı ailələrə yuxarıdan aşağı baxması hallarının mütləq cəzası olmalıdır".

**Azərbaycan Yüksəliş Partiyası başqanının Sosial, qadın və uşaq məsələləri üzrə müavini, QHT nümayəndəsi Sevinc Fədai də əlavə edib ki, son günlər torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən qazilərimizin məhz intihar və intihara cəhd aksiyalarının artması, təbii ki, hər birimizdə haqlı olaraq narahatlıq və narazılıq doğurur:** "Bu, əslində bütövlükdə cəmiyyətdə baş verən sosial gərginliyin göstəricisidir. Statusundan və peşəsindən asılı olmayaraq, ümumilikdə vətəndaşa qarşı laqeydliyin nəticəsidir. Qazilərimizin bu hala gətirilməsi isə xüsusi siqnaldır. Bu həyəcan təbili bizi oyatmalı, hərəkətə gətirməlidir. Postmüharibə dövründə qazilərin, eləcə də digər müharibə iştirakçılarının intiharı gözlənilən olur və kökündə psixoloji səbəblər dayanır. Ancaq məhz sosial-iqtisadi səbəblər, aidiyyəti qurumların, müvafiq şəxslərin biganəliyi vəziyyəti daha da qəlizləşdirir. Hesab edirəm ki, ən önəmlisi adları vətənlə, azad torpaqlarımızla bərabər çəkilən bu şəxslərə yanaşma dəyişməlidir. Münasibət dəyişərsə, sağlam dəyərlər sistemi formalaşarsa, sosial-iqtisadi problemlər də öz həllini tapacaq. Həmçinin ümumilikdə qazilərimizi də daha dayanıqlı və möhkəm edəcək. Ona görə də ideoloji boşluğu doldurmağa, bu sahədə ciddi və sistemli şəkildə çalışmalara ehtiyac var. Burada hökumətlə yanaşı, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları, media orqanları da rol almalıdır. Həmçinin, intiharlarda rolu və təsiri olan şəxslər cəzalandırılmalıdır. Cəzasızlıq sisteminin özü böyük faciələrə və boşluğa yol açır".

**S.Fədai qeyd edib ki, məsələnin əhəmiyyəti və çəkisi nəzərə alınaraq, Azərbaycan Yüksəliş Partiyası başqanının şəhid ailələri, qazilər, müharibə iştirakçıları ilə iş üzrə müavini postu yaradıldı:** "Ardınca siyasi institut olaraq, ictimai müzakirə başlatdıq. Qalib ordunun qazisi özünü aciz, çarəsiz hiss etməməlidir, bu mövzuda əlimizdən gələni etməliyik. Problemin miqyasının daha da böyüməməsi üçün zəruri addımlar atılmalıdır. Partiya olaraq, Şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə bağlı problemlərin tənzimlənməsinə dair təkliflərimizi hökumətə və ictimaiyyətə təqdim etmişik. Hesab edirik ki, bu və digər addımların həyata keçirilməsi problemin həllində böyük önəm daşıyacaq".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**



# Azərbaycanda dini-milli tolerantlıq ən yüksək səviyyədədir

## Biz qonşu ölkələrdə eyni mənzərəni görmək istəyirik

**Azərbaycan multikulturalizmin əsas mərkəzlərindən sayılır. Ölkəmizdə multikulturalizm dövlət siyasətidir. Milli azlıqların etnik-mədəni dəyərləri daim qorunur, dövlət tərəfindən bu istiqamətdə mühüm işlər görülür. Azərbaycan dünya təcrübəsində uğurla sınaqdan keçmiş ümumbəşəri dəyərlərdən faydalanmağa çalışır. Özünün geniş iqtisadi potensialını hərəkətə gətirmək məqsədilə əsas güc mərkəzlərinin qabaqcıl texnologiyalarını və maliyyə imkanlarını cəlb edir. Onlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirir.**

Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyacı, problemləri ilə yaxından maraqlanır. Azərbaycanda milli azlıqların ictimai həyatın bütün sahələrinə inteqrasiyasına, onların dini əqidə azadlığının təminatına, öz mədəniyyət və dillərini inkişaf etdirmələrinə hər cür şərait yaradılır. Azərbaycandakı nadir din-dövlət münasibətləri modeli daim dünyanın aparıcı dövlətlərinin nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Hətta onlar çıxışlarında bildirirlər ki, Azərbaycanda dinlər arasında tolerantlıq münasibətləri bütün Avropa ölkələri üçün pozitiv bir misal ola bilər. Azərbaycanın yaratdığı dövlət-din münasibətləri modelinin artıq "ixrac etmək" mümkündür. Bu model Azərbaycan xalqının sərvətidir. Xüsusilə nəzərə almaq lazımdır ki, dünyada baş verən hadisələr dini inancların təcavüzə məruz qalması, milli və etnik dözümsüzlüyün təşviqi bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilib. Yaxın Şərqdə islam pərdəsi altında törədilən dəhşətli qətllər, Avropa və Amerikada islam əleyhinə kampaniyaların geniş işıqlandırılması Qərb və Şərq sivilizasiyaları arasında uçuruma yol açır. Lakin Azərbaycanın müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı nümunəvi ölkə olduğunu qururla vurğulaya bilərik. Respublikamızda ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşaması da humanist dəyərlərə söykənir. Azərbaycanda hər kəsin milli, dini, etnik ənənələrinə hörmət edən bir cəmiyyət mövcuddur. Azərbaycan dəyərləri qanun üzərində deyil, qanunlarımız milli-mənəvi dəyərlərimiz üzərində qurulub. Bu da ölkəmizdə yaşayan müxtəlif xalqlar arasında tolerant mühitin olmasına əsas verir.

Azərbaycan dövləti sadəcə ölkə daxilində deyil, xarici ölkələrdə, o cümlədən qonşu respublikalarda yaşayan minlərlə soydaşımızın da dini ibadətlərini sərbəst icra etməsi üçün qayğısını əsirgəmir. Qonşu ölkələrdə də multikultural dəyərlərin, dini tolerantlığın inkişafı üçün səylər göstərir. Xatırladaq ki, bir neçə gün öncə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Gürcüstana səfər edərək mühüm görüşlər keçirib. Şeyxülislam Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də ilə görüşüb. Qaribaşvili qeyd edib ki, Azərbaycan Gürcüstanın təkcə qonşusu deyil, həm də qardaş xalq, dost dövlətdir. Gürcüstan iki ölkə arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrini yüksək qiymətləndirir: "Mən həmişə deyirəm ki, Azərbaycan təkcə bizim qonşumuz deyil, həm də qardaş xalqımız, dost dövlətimizdir və təbii ki, biz ölkələrimiz arasında mövcud olan qardaşlığı, dostluğu yüksək qiymətləndiririk. Bütün istiqamətlərdə bizim qeyri-adi nəticələrimiz, konkret irəliləyişlərimiz, çox yaxşı münasibətlərimiz mövcuddur və sizin səfəriniz bu qardaşlığın, sevginin sübutudur". Allahşükür Paşazadə isə öz növbəsində Gürcüstan Baş nazirinə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını çatdırıb. O, Gürcüstanın baş nazirinin iki ölkə arasında qardaşlıq və dostluq münasibətlərinə verdiyi töhfəni vurğulayıb: "Mən siyasətçi deyiləm, amma Qafqazda bu iki qonşu ölkənin münasibətlərinin siyasi, iqtisadi, mədəni, dini və digər istiqamətlərdə yüksək səviyyədə olması birmənalı olaraq diqqət çəkir".

Görüş zamanı Gürcüstan hökumətinin müsəlman icmasına dəstək istiqamətində həyata keçirdiyi müxtəlif məsələlərə diqqət yetirilib. Qeyd olunub ki, Gürcüstanda dövlət tərəfindən 228 məscid, o cümlədən 1300 kvadratmetr ərazi müsəlmanların ixtiyarına verilib. Ümumilikdə isə bu gün Gürcüstanda 300 məscidin fəaliyyət göstərdiyi qeyd olunub.

Şeyxülislam Allahşükür Paşazadə Tbilisi Cümə məscidini də ziyarət edib və Gürcüstan Müsəlmanları İdarəsində olub. Gürcüstan Müsəlmanları İdarəsinin şeyx və müftiləri ilə birgə görüş keçirilib. Qonaqlara Gürcüstandakı müsəlmanların dini sahədə vəziyyəti, İdarənin amal və məqsədi, son illərdə gördüyü işlər və gələcək proqramları haqda məlumat verilib. A.Paşazadə Gürcüstanın azərbaycanlı icmasının dövlətçilik naminə gördüyü işləri yüksək qiymətləndirib. O, din xadimlərinə müharibə zamanı Azərbaycana göstərdikləri dəstəyə və işğaldan azad olunan Qarabağ torpaqlarını ziyarətə görə minnətdarlığını bildirərək qeyd edib ki, bu səfər Azərbaycanda çox yüksək dəyərləndirilib. QMİ sədri və GMİ-nin rəhbər şəxsləri ilə görüşdə Gürcüstan hökumətinin müsəlman icmasına qayğı və dəstəyindən söz açılıb, Gürcüstan və Azərbaycan arasında dini sahədə əməkdaşlıq məsələləri müzakirə olunub. Azərbaycanla dini sahədə əməkdaşlığın xüsusi önəm kəsb etdiyini bildirib.

**İlahiyyatçı Hacı Atif İsmayılov "Şərq"ə bildirib ki, Şeyxülislamın fəaliyyəti çox genişdir və sadəcə, Azərbaycanla məhdudlaşmır. Ekspert qeyd edib ki, Şeyx həzrətləri islam sivilizasiyasının, müsəlmanların maarifləndirilməsi istiqamətində həm ölkə daxilində, həm də regionda, xarici ölkələrdə də mühüm addımlar atıb:** "Xüsusən, son illərdə bütün Qafqazın şeyxi kimi Azərbaycanın multikultural dəyərlərinin dünyada tanıdılmasında, təbliğ edilməsində böyük zəhməti olub. Şeyx həzrətlərinin ötən günlərdə qonşu Gürcüstana səfəri də dövlətimizin, eyni zamanda QMİ-nin mühüm əhəmiyyət kəsb edən səylərindən xəbər verir. Azərbaycan dövləti, o cümlədən Qafqaz Müsəlmanları İdarəsi qonşu ölkələrdə yaşayan soydaşlarımızı, onların dini ibadətlərini, inanc azadlığını daim diqqət mərkəzində saxlayır. Bu baxımdan QMİ-nin, şəxsən Şeyx həzrətlərinin səyləri, təşəbbüsləri çox önəmlidir. Azərbaycanda dini-milli tolerantlıq ən yüksək səviyyədədir və biz qonşu ölkələrdə də eyni mənzərəni görmək istəyirik. Ümid edirik, region dövlətləri xalqlararası münasibətlərdə, müvafiq qurumlar da islam dini ilə bağlı əməkdaşlıqda maraqlı və səmimi olacaqlar. Azərbaycan dövləti indiki şəraitdə islam sivilizasiyasının bütün daşıyıcılarına qayğısını əsirgəmir, öz tolerantlığını nümayiş etdirir. Bu, bizim üçün böyük şərəf və qürurdur. İnanırıq ki, Şeyxülislam həzrətlərinin bu cür səfərləri çoxalacaq və dünya ölkələrinə, ələlxüsus qonşu dövlətlərə Azərbaycanın tolerantlığı, multikultural dəyərləri daha geniş çapda çatdırılacaq. Azərbaycan qonşu ölkələrlə dinlərarası və millətlərarası münasibətlərin inkişafında da hər zaman maraqlı olub və çoxsaylı təşəbbüslər göstərib. Şeyxin atdığı addımlar uğurludur. Allah ona can sağlığı versin ki, dünyanın hər yerində Azərbaycanımızı gözəl şəkildə təbliğ etsin. Son olaraq Dünya Ağsaqqallar Şurasının üzvü seçilməsi münasibəti ilə də Şeyx həzrətlərini təbrik edirəm".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Yaz fəsli, yar vəsli...

## *Zəhirəddin Məhəmməd Babur yaradıcılığında eşqin tərənnümü*

**İnsan qəlbinin ən səmimi və ən təsirli duyğularından birinin bədii ifadəsi olan eşq-məhəbbət mövzusu dünya poeziyasının ən qədim və ən yayğın mövzularından sayılır. İstər Şərq ədəbiyyatında, istərsə Qərb poeziyasında bu mövzuya biganə qalan və ya sevgi tərənnümündən yan keçən hər hansı şairi təsəvvür eləmək belə çox çətindir. Xüsusən, azad məhəbbətin daha çox təqib olunduğu ictimai mühitin qadağaları ilə üzləşən klassik Şərq poeziyasında sevgi mövzusu əsrlər ərzində yalnız fərdi intim yaşantıların deyil, eyni zamanda, dərin ictimai mətləblərin, ədalətsiz cəmiyyətlərdə insan azadlığı və hüquqlarının, insan arzu və istəklərinin ifadəçisi və daşıyıcısı rolunu oynayıb.**

Şərq klassik lirikasının Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi, Sədi Şirazi, Hafiz Şirazi, Mövlana Lütfi, Əlişir Nəvai, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli kimi məşhur nümayəndələrinin yaradıcılığında sevgi mövzusu və eşq-məhəbbət tərənnümü məhz bu cür geniş miqyasa və dərin mahiyyətə malikdir.

Divan ədəbiyyatının müxtəlif janrlarında və sevgi mövzusunda yazdığı gözəl və özünəməxsus şeirləri ilə adını Şərqin böyük liriklərinin sırasında ədəbiləşdirən özbək klassiklərindən biri də Zəhirəddin Məhəmməd Baburdur (1483-1530). Şairin özünün hər hansı şəkildə iştirakı ilə tərtib olunmuş divanı bizə qədər gəlib çatmasa da, onun dünyadakı müxtəlif əlyazmaları fondlarında qorunub saxlanan divanlarının çeşidli nüsxələrində klassik divan ənənəsinin tələblərinə uyğun olaraq, yüzdən artıq qəzəlləri, çoxsaylı rübailəri, tuyuqları, məsnəviləri, müəmmaları, fərdləri və s. örnəkləri mövcuddur.

Klassik poeziyanın başqa görkəmli nümayəndələri kimi, Babur lirikasında da sevgi-məhəbbət mövzusunun yeri aparıcı mövqeyə malikdir. Tanınmış ədəbiyyatşünas, filologiya elmləri doktoru Yaşar Qasımbəyli yazır:

"Z.M.Baburun lirikası formaca və şəkilcə müxtəlif olduğu kimi, estetik mündəricəsinə və məzmununa, poetik hədəf və mövzularına görə də rəngbərəngdir. Şairin lirikasını bu nöqteyi-nəzərdən aşağıdakı kimi təsnif etmək məqsədə müvafiqdir: 1. Sevgi lirikası. 2. Aftobioqrafik məzmunlu lirika. 3. Fəlsəfi məzmunlu və ümuminsani duyğular lirikası. 4. Təbiət və dünya gözəlliklərinin tərənnümü. 5. Şahanə duyğular şeiriyyəti.

Bizim bu araşdırmada əsas mövzumuz olan eşq-məhəbbət tərənnümünə gəlsək, bu tərənnümün özünəməxsus təzahür formalarını nəinki Babur lirikasının ayrı-ayrı janrlarında (qəzəl, rubai, tuyuq və s.), hətta müxtəlif münasibətlərə "Baburnamə"dən yer almış şeir parçalarında da müşahidə etmək mümkündür və bunlar bir çox tədqiqatçıların diqqətini yaxından cəlb edib.

Amma biz burada Baburun ən ənənəvi mövzuda belə yüksək poetik məharətini diqqət mərkəzinə çəkmək üçün fikir və mülahizələrimizi Şərq lirik poeziyasının, o cümlədən, Babur lirikasının əsas janrı olan qəzəl nümunələri əsasında davam etdirməyi daha məqsədəuyğun sayırıq və orijinalın əsas xüsusiyyətlərini (vəzn, qafiyə, bədii sənətlər və s.) qoruyub saxlamaq üçün onları tərcümə etmədən yalnız azərbaycanca tələffüzə və əlifbaya uyğun şəkildə təqdim edirik.

**Birinci nümunə:**



**Camalın vəsfini, ey ay, neçə eldən eşitgəymən,**
**Nə gün bolğay, vüsalına məni dilxəstə yetgəymən?**
**Tərəhhüm üzüdən üzünü görməyə buyurgəysən,**
**Xoş olki, arizini görgəmən, sözün eşitgəymən.**

**İtidirmən, saçın zəncirini boynuma möhkəm qıl,**
**Ki, vadiyi fərağın içrə qorxuram ki, itgəymən.**
**Tərəhhüm qılmasan ya baxmay istiğna bilə ötsən,**
**Təzərrü qılğaman ya ağlağayman, özgə netgəymən?**

**Müyəssər bolmasa başımı qoymaqlığ ayağına,**
**Başımı alıb, ey Babur, ayaq yetincə getgəymən.**

Göründüyü kimi, bu beş beytlik qəzəl nümunəsi, hər şeydən öncə, əks etdirdiyi sevgi yaşantısının səmimiliyi və təbiiliyi ilə diqqəti çəkir. Ümumən, məhəbbət tərənnümündə həyati cizgilərin bolluğu ilə müşayiət olunan xəlqi ifadə tərzi Babur lirikasının əsas xüsusiyyətlərindən hesab olunur. Şərq klassik poeziyasının, o cümlədən, Babur lirikasının əsas yaradıcılıq metodu ənənəvi romantizm sayılsa da, şairin bir sıra qəzəllərində müşahidə olunan realizm ünsürləri, bir tərəfdən, bu örnəklərdəki yaşantıların müəyyən mənada lirik "mən"in keşməkeşli taleyi ilə bağlılığından qaynaqlanırsa, başqa tərəfdən, onun lirikasının heç kiminkinə oxşamayan özünəməxsus təbiətini müəyyənləşdirir. O cümlədən, bu özünəməxsusluq bədii məharət sahəsində də özünü aşkar şəkildə büruzə verir. Məsələn, nəzərdən keçirdiyimiz yuxarıdakı qəzəldə əgər bəzi istiarə və təşbehlər (məşuqəyə ay kimi müraciət olunması, onun hörüyünün zəncirə bənzədilməsi və s.) ənənəvi təsir bağışlayırsa, sonuncu beytdə "ayaq" sözünün hər iki misrada, eyni zamanda, "qədəh" mənasında da işlədilməsi ilə yaranan eyham sənəti həqiqi baburanə məharətin parlaq misallarından biri kimi həssas oxucunu heyrətə gətirir.

Böyük şairin lirik yaşantılarında bu cür söz oyunlarına tez-tez müraciət olunmasının poetik məharəti nümayiş etdirməklə yanaşı, başqa bir ciddi səbəbi də var. Dahi sələfi Əlişir Nəvainin ardınca Babur da öz ana dilinin zənginliyini göstərmək üçün onun mənalar xəzinəsini, xüsusən, omonim və sinonim tükənməzliyini sərgiləyən bədii sənət və üsullara ayrıca üstünlük verirdi. Bu nöqteyi-nəzərdən həssas şairin dillər əzbəri olmuş aşağıdakı şahanə beytinə dərindən diqqət yetirmək kifayətdir:

**Ləbin bağrımı qan qıldı,**
**gözümdən qan rəvan qıldı,**
**Neçün halım yaman qıldı,**
**mən ondanbir sorarım var.**

Burada da, yuxarıda müşahidə etdiyimiz kimi, əgər daxili qafiyələr (qan, rəvan, yaman) hesabına misraların axıcılığ kəsb etməsi klassik ənənədən qaynaqlanırsa, birinci misrada biri-birinə uyğun söz və anlamların (ləb, qan, bağır, qanlı göz yaşı) işlədilməsi ilə yaranan tənasüb sənəti və ikinci misradakı "bir sorarım var" ifadəsinin iki mənası ("bir sualım var" və "bir busə almağım var") ilə üzə çıxan eyham sənəti böyük sənətkar məharətinin bənzərsiz örnəyi kimi oxucunu məftun edir.

**İkinci nümunə:**

**Bahar əyyamıdır, dəxi yigitliyin əvanıdır,**
**Gətir, saqi, şərabi-nab ki, işrət zamanıdır.**

**Gəhi səhra üzərə lalə şəklidən erur gülgün,**
**Gəhi səhni-çəmən gül çöhrəsindən ərğuvanıdır.**

**Yenə səhni-çəmən boldu münəqqəş rəng güllərdən,**
**Məgərki sünnin nəqqaşına rəng imtahanıdır.**

**Üzün, ey sərv, canım gülşəninin təzə gülzarı,**
**Qədin, ey gül, həyatım bağının sərvi-rəvanıdır.**

**Nə yerdə bolsan, ey gül, əndədir çün canı Baburun,**
**Qəribinə tərəhhüm eyləgil ki, Əndicanıdır.**

Bu gözəl nümunədən də bəlli olduğu kimi, Baburun məhəbbət lirikasının özünəməxsus tərəflərindən biri də ondan ibarətdir ki, onun müxtəlif janrlarda yaranmış, bir sıra lirik dürdanələrində eşq-məhəbbət tərənnümü Vətən həsrəti və qürbət iztirabı ilə birlikdə ifadə olunur. Bu da yuxarıda vurğuladığımız kimi, ilk növbədə böyük şairin erkən gəncliyindən tutmuş ömrünün sonuna qədər həyatda üzləşdiyi çətinliklərdən və çeşidli sərgüzəştlərdən qaynaqlanır.

Baburun məhəbbət yaşantısını təsirli və səmimi ifadə etmək baxımından misilsiz məharət sahibi olduğuna ikinci qəzəl nümunəsində bir daha heyrət edirik. Qəzəlin bütün başqa beytlərində rast gəlinən və az-çox özündən əvvəlki klassik ənənələrlə səsləşən istiarə və bənzətmələrdən (sərv, gül, gülzar, qırmızı şərab, lalə və s.) sonra axırıncı beytdə, dərin və təsirli lirik yaşantının yekununda yenidən baburanə yüksək bədii məharətin şahidi oluruq. Şair böyük həssaslıqla "əndə can" və "Əndican" sözlərinin səsləşməsindən istifadə edərək, qəzəlin məqtəsində eyham sənətinin bənzərsiz örnəyini yaratmağa müvəffəq olur.

Babur yaradıcılığında sevgi və məhəbbət tərənnümünün daha bir özünəməxsus təzahür forması sözügedən yaşantıların başqa həyatsevər hisslər və duyğularla (gözəllik, səfa, dostluq, həmdəmlik, həmdərdlik və s.) birlikdə vəsf olunması və aşılanmasıdır. Bu nöqteyi-nəzərdən şairin məşhur qəzəllərindən daha bir örnəyi diqqətlə nəzərdən keçirmək məqsədəuyğundur.

**Üçüncü nümunə:**

**Yaz fəsli, yar vəsli, dostlarının söhbəti,**
**Şeir bəhsi, eşq dərdi, badənin keyfiyyəti.**
**Yaz fəslində çaxır içməyin özgə halı var,**
**Kimə bu nəşə müyəssər bolsa, vardır dövləti.**

**Eşq dərdini çəkib hər kim ki tapsa vəsli-yar,**
**Ol zaman bolğay unut yüz ilki hicran şiddəti.**
**Dostlarının söhbətində nə xoş olğay bəhsi-şeir,**
**Ta bilingəy hər kişinin təbi ilə haləti.**

**Kim bu üç işi müvafiq tapsa ol üç vaxt ilə,**
**Bundan artıq bolmağay, Babur, cahanın işrəti.**

Bu bənzərsiz qəzəl nümunəsi isə hər şeydən öncə, öz nikbinliyi və həyatsevərliyi ilə diqqətəlayiqdir. Onda insan həyatının arzu-istək və ümid mənbəyi olan duyğu və yaşantıların bu qədər üzvi vəhdətdə və biri-biri ilə qırılmaz əlaqədə verilməsi oxucunu dərindən təsirləndirməklə bərabər, onu bir daha inandırır ki, belə nikbinlik və həyatsevərlik aşılayan bir nümunə yalnız Zəhirəddin Məhəmməd Babur kimi həyatın hər üzünü görmüş, o cümlədən, məhəbbətin acı-şirinini dadmış, ən başlıcası, öz iradəsi ilə həmin çətinliklərin hamısından qalib ayrılmış bir şairhökmdarın və öz mətanəti ilə artıq hicran iztirablarını geridə qoymuş bir aşiq-şairin qələmindən çıxa bilərdi.

**Bəxtiyar Məmmədov,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun"Azərbaycan - Türkmənistan - Özbəkistan ədəbi əlaqələr" şöbəsinin böyük elmi işçisi, doktorant**

# "Akademiya təzə quruluşa keçə bilmir"

## Şahlar Əsgərov: "Ona görə də həmişə tənqid hədəfinə çevrilir"




**Azərbaycan Televiziyası (AzTV) Azərbaycan Milli Elmlər Akademiyasını (AMEA) "vurub". Telekanal AMEA-nın fəaliyyətsizliyi barədə süjet hazırlayıb.**

AMEA-da işçilərin yaşından başqa heç nə dəyişmədiyi barədə tənqidi fikirlər irəli sürən "AzTV"çi müxbir akademiyanın içindən və çölündən reportaj hazırlayıb.

Videonu akademiyanın rəsmi saytında yerləşdirib.

Akademiyanın belə addımı ictimaiyyət arasında müzakirəyə səbəb olub. İddia edilir ki, bu ya qeyri-peşəkarlıqdır (məlumat oxunmadan yerləşdirilib), ya da akademiyanın içindən kiminsə təxribatıdır.

AMEA-nın prezidenti vəzifələrini rica edən Arif Həşimov AzTV-nin akademiya barədə tənqidi süjetinin qurumun rəsmi saytında yerləşdirilməsi məsələsinə münasibət bildirib.

A.Həşimov Manset.az-a açıqlamasında qeyd edib ki, bu, onun tapşırığı ilə edilib.

"Hazırda yay vaxtı olduğu üçün bir çox əməkdaşlarımız məzuniyyətdədirlər. Digər tərəfdən, yaradıcı insanlara saat rejimi qoymaq olmaz. Mən özüm və digər institut direktorları saat 8-9-a qədər AMEA-da oluruq. Belə yanaşma düzgün deyil. Bəlkə özündənrazılıq kimi qiymətləndirilə bilər, ancaq mənə kimsə AMEA-nın nə daxili, nə xarici işini, ümumən iş prinsiplərini öyrədə bilməz. Bundan əvvəlki AMEA prezidentlərinin zamanında bütün bu işləri mən görmüşəm. Yaşlı alimlərimizin, xüsusən akademiklərin gənc nəslə dəstəyinə gəlincə, diqqətlə baxsaq, hər birinin nə qədər fəlsəfə doktorlarının, elmlər namizədinin yetişməsində, dərəcə almasında rolu olduğunu görərik. Mənim özümün 25-ə yaxın elmlər namizədinə dəstəyim var. 2002-ci ildə Fizika İnstitutunun direktoru olanda 200-ə yaxın gənci işə götürmüşəm. Tənqidi qəbul etmək və nəticə çıxarmaq lazımdır".

**Məsələ ilə bağlı "Şərq"ə danışan əməkdar elm xadimi, professor Şahlar Əsgərovun fikirlərinə əsasən, AMEA tənqidlərdən nəticə çıxarmır:** "AMEA ilə bağlı 20-ə yaxın publisistik, təhlili məqaləm var. AMEA keçmiş sovet rejiminin inzibati idarə sisteminə uyğun qurumdur. Demokratik, liberal ölkələrdə belə qurumlar elmi klublar şəklində mövcuddurlar. AMEA təzə quruluşa keçə bilmir. Ona görə də həmişə tənqid hədəfinə çevrilir. Nəticə də yoxdur, çünki struktur yeni quruluşa uyğun deyil.

Azərbaycanda dəyərli alimlər çoxdur.

Əksəriyyəti AMEA-da çalışır. Alimlər əhəmiyyətli məqalələr, monoqrafiyalar yazıb. Lakin Azərbaycanda elmi nəticə sənayedə tətbiq olunmur. Bədbəxtçilik və bəla burdadır. Elmi formula, həmçinin sənaye zavodları olsa da, amma texnologiya xətti yoxdur. Elm ilə sənaye arasında boşluq var. Boşluğu doldurmaq lazımdır".

**Professorun qənaətincə, əvvəlcə elmi əsas hazırlanmalıdır:** "Keçmiş sovet ölkələrinin çoxunda AMEA institutları universitetlərin müvafiq fakültələrinə inteqrasiya olub. Bizim üçün ən yaxşı struktur Türkiyə modelidir. Türkiyədə Elm, Sənaye və Texnologiya Nazirliyi birlikdədir.

Texnoloqlar elmi nəticələri reseptlərə, sənayeçilər isə məhsula çevirir. Bizdə olmadığı üçün elm gündən-günə gözdən, hörmətdən düşür. Hətta hər il büdcə təsdiqlənəndə AMEA-ya Ümumi Daxil Məhsulun ( ÜDM ) 1 faizinin onda biri qədər vəsait ayrılır. Halbuki, Sinqapurda ÜDM-nin 4 faizi qədər vəsait ayrılır. Bununla ancaq "baş fırlatmaq" mümkündür. Elmə baxış kordinal dəyişməlidir".

**Aygün Tahir**

# Ombudsman təklif səsləndirdi

## Pensiya yaşına müəyyən müddət qalanların ixtisarı qadağan olunsun!

**"Pensiya yaşına çatmağa az qalmış işçilərin ixtisar yolu ilə işdən azad edilməsi və ya onların işə qəbul edilməsindən imtina olunmasının qadağan edilməsi ilə bağlı xarici ölkələrin təcrübəsi əsas götürülməklə qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsini zəruri hesab edirəm".**

Bu sözlərin müəllifi ombudsman Səbinə Əliyeva hesab edir ki, qanunvericiliyə müvafiq əlavə və dəyişikliklər edilməlidir. Ombudsman həmçinin qeyd edib ki, bu problemin həlli ilə bağlı pensiya yaşına müəyyən müddət qalan şəxsin əmək müqaviləsinin ləğv edilməsini qadağan edən müddəaların qanunvericilikdə tətbiq edilməsi, bundan başqa, Əmək Məcəlləsi və İnzibati Xətalar məcəlləsində müvafiq əlavə və dəyişikliklərin edilməsi məqsədə müvafiqdir.

**İqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, ölkəmizdə çox az hallarda pensiya vaxtına 4-5 il qalmış vətəndaşı işdən çıxarırlar. Bu da o zaman baş verə bilər ki, əmək məcəlləsi kobud şəkildə pozulsun. Bizdə belə tip məsələlərdə həm milli mentalitetimiz, həm də hüquq və azadlıqlar nəzərə alınır. Ona görə də mövcud qanunvericiliyə xüsusi dəyişiklik etməyə ehtiyac yoxdur. Əlavələr edilsə belə, hər bir hal fərdi şəkildə araşdırılmalıdır:** "Təsəvvür edək ki, müəssisə bağlanır, ştatların bir qismi ixtisar olunur. Burada çalışan vətəndaşın da pensiya yaşına 10 il qalıb. Belə vəziyyətlərdə işə götürən nə edə bilər? Ona görə də təkliflər verilən zaman əmək bazarındakı vəziyyət öyrənilməli və nəzərə alınmalıdır. Belə təklif verilməsi müsbət haldır, lakin işin icrasını real görmürəm. Bu prinsip dünyada bir qədər fərqli tənzimlənir. Mən əgər yaxşı işçiyəmsə, məni niyə işdən çıxarmalıdırlar? Avropada və Amerikada da məhkəmə mexanizmləri var, lakin orada belə məsələlər mübahisə predmeti deyil. Əgər rəhbər vəzifədə çalışan hər hansı bir insan sui-istifadə hallarına yol verirsə, məhkəmə yolu ilə qarşısını almaq mümkündür. İşçi haqsız olduğu zaman, onu 3-5 il qalmış vəzifəsindən kənarlaşdırmaq olar. Sırf yaşı nəzərə alınaraq işdən uzaqlaşdırılan vətəndaşın sonrakı taleyinə, yenidən iş tapa bilməsinə gəldikdə isə hazırda ölkədə iş yerləri ilə bağlı vəziyyət ürəkaçan deyil. Vəziyyət tək yaşlılar üçün deyil, elə gənclər üçün də oxşardır. Dövlət müəssisələrində pensiya yaşına 5-10 il qalmış vətəndaşı işə götürürlər. Nəzərə alaq ki, insan yaşa dolduqca peşəkarlaşır. Özəl şirkətlərdə isə bu hal tamamilə əksinədir. Onlar daha çox gənc kadrları işə cəlb etməyə maraqlıdır".



***İqtisadçı: "Belə təklif verilməsi müsbət haldır, lakin işin icrasını real görmürəm. Bu prinsip dünyada bir qədər fərqli tənzimlənir"***

**Şəymən**

# Sürücülərə xəbərdarlıq etməklə iş bitmir

## DYP yol hərəkəti qaydaları ilə bağlı ciddi tədbir görmək istəyirsə, təbliğat və təşviqat tədbirlərini düzgün qurmalıdır




**Baş Dövlət Yol Polisi İdarəsi sürücü və piyadalara müraciət edib. İdarədən verilən məlumata görə, yay mövsümü ilə əlaqədar paytaxt yollarındakı hərəkətlilik əsaslı şəkildə hiss olunmaqdadır, bu da mövsümə xarakterik olaraq təbii qiymətləndirilir: "İstər piyada qismində, istərsə də sürücülərin gündəlik hərəkətlərinin gecə saatlarına qədər davam etməsi yol hərəkəti qaydalarının pozulması və bu fonda bir sıra bədbəxt hadisələrin artmasına gətirib çıxarır.**

Yol-nəqliyyat hadisələrinin başvermə səbəbləri və şəraiti araşdırılarkən müxtəlif amillərə rastlaşırıq. Adətən əsas səbəb yol hərəkəti qaydalarının pozulması ilə əlaqəli olur".

Müraciətdə qeyd olunub ki, sürücülər əksər vaxtda bilərəkdən məsuliyyət hissini unuduraq müəyyən olunmuş sürət həddinə əhəmiyyət vermir, nümayişkaranə şəkildə qarşı hərəkət zolağına çıxır, ötmə, manevr etmə və yaxud yolayrıcını keçmə qaydalarını kobud şəkildə pozur, ara məsafəsi saxlamır.

Halbuki, sükan arxasına əyləşən hər bir sürücü yol və hava şəraitinə görə nə qədər təcrübəli olduğunu özü daha yaxşı bilməli, təhlükəli situasiyanı düzgün qiymətləndirməyi bacarmalı, daim yol hərəkəti qaydalarına dair biliklərini və sürücülük vərdişlərini təkmilləşdirməlidir. DYP qeyd edib ki, piyadalar küçə və yolları piyadalar üçün nəzərdə tutulan yerlərdən keçməli, məhdudiyyətli görünmə, yəni duman, yağış, qar şəraitində, habelə sutkanın qaranlıq vaxtı xüsusilə diqqətli olmalıdır. Qulaqlıqdan istifadə etrafdakı avtomobillərin səsini eşitməyə imkan vermədiyi üçün yolu keçərkən ondan istifadə etməmələri tövsiyə olunur: "İctimai nəqliyyatı gözləyərkən və ona minib-düşərkən, həmçinin qəflətən avtomobil yoluna çıxmayın, yaxınlaşmaqda olan avtomobillərin sürətini düzgün qiymətləndirin, onların tam dayandığına, sürücülərin sizə yol verdiklərinə əmin olduqdan sonra hərəkətə başlayın".

***"Hər kəsin yol hərəkəti qaydalarına görə hüquqları və məsuliyyəti var. Zəhmət çəkib, buna riayət etmək lazımdır"***

**Nəqliyyat üzrə ekspert Ərşad Hüseynov isə "Şərq"ə açıqlamasında deyib ki, nə xəbərdarlıq, nə də müraciətlə mövcud problemləri aradan qaldırmaq mümkündür. Deyilənlərin hamısı elə ordada da qalır.** DYP yol hərəkəti qaydaları ilə bağlı ciddi tədbir görmək istəyirsə, təbliğat və təşviqat tədbirlərini düzgün qurmalıdır. Yol hərəkəti Təhlükəsizliyinə dair Dövlət Proqramını icra etmək lazımdır. Bu proqramda hər şey yazılıb. Sürücülərin peşəkarlığından tutmuş, piyadaların hərəkətinə qədər. İnsanların ümumi dünya görüşünü dəyişən təbliğatlar aparılmalıdır. Bu proqramda əks olunan maddələr elə formada təqdim olunmalıdır ki, sürücülər sükan arxasına əyləşərkən ilk növbədə məsuliyyətini dərk etməli olduğunu anlasın. Sürücülərə hər şeydən öncə məsuliyyət hissini aşılamaq lazımdır. O, dərk etməlidir ki, uyğunsuz idarəetməyə görə faciə yaşanar. Bir də nəzarət qaydasında olmalıdır.

Bu cür maarifləndirmə təkcə sürücülər arasında yox, həm də piyadalar arasında aparılmalıdır.

Elə etmək lazımdır ki, "sürücü məni görür, yol verəcək" kimi stereotiplər olmasın. Qaydalar deyirsə piyada keçidindən keç, deməli, bu cür etməlisən. Hər kəsin yol hərəkəti qaydalarına görə hüquqları və məsuliyyəti var. Zəhmət çəkib, buna riayət etmək lazımdır. Qanunda konkret vəzifələr var və piyada bunu pozursa günahkardır. Sürücü isə onu gördüsə və dayana bildiyi halda dayanmırsa, günahkardır. Vətəndaşlara bunu aşılamaq, qanunu aliliyini təbliğ etmək lazımdır. BMT-nin yol hərəkəti təhlükəsizliyi ilə bağlı qəbul etdiyi sənədlərdə dövlət qurumlarından daha çox məsuliyyət tələb olunur".

**Şəymən**

## Azercell "Bölgələrə daha yaxın" şüarı ilə həyata keçən səfərlərini uğurla yekunlaşdırdı

### Lider mobil operator bölgə sakinlərini yeni məhsulları ilə tanış etdi



**İyul ayının 12-dən etibarən regionları-mızı "Bölgələrə daha yaxın" şüarı altında gəzən Azercell** səfərlərini uğurla tamamladı. Özündə silsiləvi tədbirləri cəmləşdirən kampaniya 2 həftə boyunca davam etdi. Xaçmaz, Quba, Şəki, Gəncə, Bərdə, Cəlilabad da daxil olmaqla ümumilikdə 14 bölgəni əhatə edən tədbirdə abunəçilərə yeni məhsullar və xidmətlər təqdim olundu. Kampaniya çərçivəsində sonuncu görüş isə iyul ayının 25-də Füzuli rayonunda baş tutdu. Aksiyanın davam etdiyi müddət ərzində bölgədəki abunəçilər ilə sıx ünsiyyət yaradılaraq onların bütün sualları cavablandırıldı. Azercell tədbir ziyarətçilərini maraqlı təkliflər ilə tanış etdi, qonaqlar üçün müxtəlif oyunlar keçirildi və hədiyyələr paylanıldı. Kampaniya müddətində lider mobil operator rəsmi Instagram səhifəsində də müxtəlif müsabiqələr keçirərək izləyicilərinə internet paketləri qazanmaq imkanı yaratdı. Ölkənin lider mobil operatoru Azercell abunəçilərini yeni layihələri ilə sevindirməyə davam edəcək!

## "Atlanın, igidlər!"

### Artıq düşmənə anladığı dildə başa salmağın vaxtı çatıb



**"Vaxtdır. Atlanın igidlər, vurun, əzin və gedə bildiyiniz qədər irəliləyin. Hamılıqla yanınızdayıq!".**

Bunu hərbi ekspert Ədalət Verdiev öz feysbuk hesabında paylaşıb. Məlum fikirləri ilə ölkə ictimaiyyətinə ötürdüyü mesajın kodlarını açan ekspert "Şərq"ə bildirib ki, Ermənistan tərəfinin həm sərhəddə, həm də Qarabağın perimetrləri boyunca yerləşən Azərbaycan Ordusunun mövqelərinə qarşı 9 dəfə atəşkəsi pozması dövlətimizə düşmənə qarşı daha təsirli adekvat tədbirləri görməyə imkan verir: "Bu prosesdə biz rus sülhməramlı kontingentinin yaritmaz fəaliyyətini bir daha müşahidə edirik. Ermənistan və Rusiya tərəfi birgə bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən imtina edirsə, Azərbaycan da üzərinə götürdüyü öhdəliklərdən geri addım ataraq, 2020-ci ilin 9 noyabr tarixinə, yəni Şuşa və onun ətrafındakı 71 kəndin azad edildiyi tarixə qayıda bilər. Məhz bu mənada Azərbaycan artıq düşmənin atəşkəsi pozan mövqelərini darmadağın etməli və həmin ərazilərdə Azərbaycan əsgərini və üçrəngli bayrağımızı yerləşdirməlidir. Bunun üçün artıq bizim əlimizdə bütün hüquqi əsaslar mövcuddur. Heç bir halda Azərbaycan onun ərazilərinə atəş açılmasını və əsgərimizin həyat və sağlamlığına real təhdid törədilməsinə biganə qala bilməz". Artıq düşmən tərəfini anladığı dildə başa salmağın vaxtının çatdığını vurğulayan ekspert onu da əlavə edib ki, bunun üçün yetərli güc və potensiala sahibik: "Böyük ehtimalla Azərbaycan antiterror, cəzalandırma, təmizləmə və ya necə adlandırarsaq adlandıraq, hər hansı bir əməliyyatı həyata keçirmək məcburiyyətində qalıb. Biz müharibə istəmirdik. Amma Ermənistan tərəfi bunu israrla bizdən tələb edirsə, onlar buna nail olacaqlar. Bu əməliyyatların nəticəsi həm separatçı qrup, həm də Ermənistandakı hakim dairələr üçün çox ağrılı və acılı olacaq".

**Çimnaz Şahlar**

**Elan**

Gizir Şirinli Ruslan Qafar oğluna verilmiş SQ 0017790 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tiraj: 2550 Sifariş: 2080**



## Çay paketlərində yüzlərlə həşəratın DNT-si aşkarlandı

**Trir Universitetinin genetikləri çay paketlərində həşərat qalıqları aşkar ediblər. Alimlərin işi "Biology Letters" jurnalında dərc olunub.**

Oxu.az xəbər verir ki, alimlər çayın qara, yaşıl, nanə və çobanyastığı da daxil olmaqla bir neçə növünü tədqiq ediblər. Genetiklər xüsusi DNT analizindən istifadə edərək çay paketlərindəki yarpaqlarda yad DNT-nin ən kiçik qalıqlarının olub-olmadığını yoxlayıblar. Ümumilikdə təcrübə zamanı 1200-dən çox buğumayaqlının izləri müəyyən edilib.

Məsələn, nanə çayında ABŞ-ın Sakit okean şimal-qərb bölgəsindən həşərat DNT-si, yaşıl çayda isə Şərqi Asiyadan olan buğumayaqlıların DNT-si tapılıb.

Alimlərin fikrincə, həşərat DNT-si çay yarpağının yalnız 0,1%-ni təşkil edir, digər 99,9%-i isə bitki DNT-sidir. Alimlərin fikrincə, çayda həşərat qalıqlarının olması yarpaqlarda pestisidlərin olmamasından xəbər verir.

## Britni Spirs anasını zorakılıqda ittiham edir



**Məşhur müğənni Britni Spirs anası Linn Spirsi ona qarşı zorakılıq tətbiq etməkdə və ruhi xəstəxanaya məcburi yerləşdirmədə ittiham edib.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, bu barədə ifaçı instaqram hesabında yazıb. Britni iddia edib ki, anası onu təyin olunan müalicə tarixindən həftələr əvvəl zorla psixiatrik xəstəxanaya yerləşdirib. Müğənni vurğuılayıb ki, klinikaya yerləşdirmə əvvəlcədən planlaşdırılıb, lakin Linn nə baş verdiyini bilmirmiş kimi davranıb. Hadisə 2019-cu ildə, Britninin atası Ceymi qızının müvəqqəti qəyyumluğu üçün müraciət etməzdən bir gün əvvəl baş verib.

Bundan başqa, Spirs anasının onu anonim alkoqol məclislərində iştirak etməyə məcbur etdiyini də açıqlayıb. Müğənni daha sonra paylaşımını silib.

Linn bundan sonra qızının iddiaları ilə bağlı sosial media hesabında paylaşım edib:

Britni, bütün yazışmalar məndə də var. Sənə ən çox sevən insanların xəyanət etdiyini hiss etdiyin üçün üzülürəm. Sənə tərəf gəlməyimə icazə ver. Mən səni sevirəm".



# Dünyanın ən dəhşətli edamı

## 10 dəqiqəyə bitməli olan edam 117 dəqiqə çəkdi, Vud 600 dəfə xırıldayıb

**Keçmiş sevgilisi Debbi Dits və onun atası Cin Ditsi öldürən Cozef Vud 25 ildir ki, edam olunacağı günü gözləyirdi. İllər sonra həyata keçirilən edam zamanı baş verənlər çoxlarını dəhşətə gətirdi və bu edam "dünyanın ən pis edamı" kimi tarixə keçdi.**

Cozef Vud sevgilisi Debbi Ditzlə yaşadığı problemlərə görə bir müddət əsəbi olub. İkili arasında beş illik münasibət onların son mübahisəsindən sonra bitib. Lakin Vud bunu qəbul etməkdə çətinlik çəkirdi. Vudun Debbiyə olan marağı "takıntı" səviyyəsinə yüksəlmişdi. Təqvimlər 1989-cu ilin 7 avqust tarixini göstərirdi və ABŞ-ın Arizona ştatında yaşayan insanlar həddindən artıq istilərlə mübarizə aparırdı. Debbi Dits və atası Cin Dits ailələrinə məxsus idman mağazasında günün bitməsini gözləyirdilər. Debbi Ditz Cozef Vud ilə olan münasibətinə son qoyduğuna görə özünü rahat hiss edirdi. Elə həmin gün Vudun mağazaya gəlməsi ilə Ditsin rahatlığı pozuldu. Keçirdiyi qısqanclıq və əsəbdən sonra Vud mağazada Debbi Dits və atası Cin Ditsi güllələyib öldürdü.

"Şərq" "Milliyet"ə istinadən xəbər verir ki, hadisədən sonra saxlanılan Vud 25 fevral 1991-ci ildə hakim qarşısına çıxdı və iki dəfə 1-ci dərəcəli qətldə günahkar bilindi. Vud 2 iyul 1991-ci ildə ölüm cəzasına məhkum edildi. Bu məqamda heç kim bilmirdi ki, Vudun ölüm hökmü illər sonra "dünyanın ən pis edamı" kimi xatırlanacaq... Cozef Vud barəsində çıxarılan ölüm hökmü onun məhkum edilməsindən düz 25 il sonra icra olunmalı idi. 2014-cü il iyulun 23-də Arizona ştatının Florensiya ştatının cəzaçəkmə müəssisəsində bir günlük ölüm hökmü üçün hazırlıq görülürdü. 25 il əvvəl 2 nəfəri öldürərək ölümə məhkum edilən Cozef Vud bədəninə zəhər yeridərək edam edilməli idi.

Edam üçün xərəyə qoyulan Vuddan son sözləri sorşulub. "İlk növbədə, ölüm hökmünün ləğvi üçün səy göstərən hər kəsə təşəkkür etmək istərdim. 2007-ci ildə xristianlığı qəbul edəndən bəri özümü bu məqsədə hazırlamışdım. Əzablarımın bu gün bitəcəyini bilmək məni yaxşı hiss etdirir. Dua edirəm ki, burada hər kəsin qəlbində hüzur olsun. Allah hamınızı bağışlasın"- deyə Vud son sözlərini deyib.

Saat 13:52-ni göstərəndə Vuda zəhər vuruldu. Edam prosesinə nəzarət edən səlahiyyətlilər Vudun 10 dəqiqə ərzində öləcəyini təxmin edirdilər. Amma işlər yolunda getmirdi. Saat 13:52-də başlayan edam 117 dəqiqə sonra saat 15:49-da başa çatıb. Bildirilir ki, 10 dəqiqə davam etməli olan edam zamanı Vudun çənəsi düşüb və sinəsi genişlənərək büzülüb. Vud ölməzdən əvvəl 600 dəfə xırıldayıb.

Vudun ölmədiyini və əziyyət çəkdiyini görən vəkillər edamın dərhal dayandırılması üçün məhkəməyə müraciət ediblər. Vəkillər tribunala bildiriblər ki, Vud bir saatdan artıqdır ki, kəsik-kəsik və ağır nəfəs alır. Vudun ölümündən bir saat sonra vəkillərin müraciəti rədd edilib. Mübahisə böyüdüyünə görə, ştatın qubernatoru Yan Brever açıqlama verib. O bildirib ki, qətldə təqsirli bilinən Cozef Vudun edamının bu qədər uzun çəkməsindən narahatdır. Qubernator əlavə edib ki, edam zamanı baş verənlərin araşdırılması üçün lazımi göstərişləri verib. Arizona ştatının baş prokuroru Tom Horne verdiyi açıqlamada iddiaların əksinə olaraq Vudun əziyyət çəkmədən dünyasını dəyişdiyini bildirib. Səlahiyyətlilər edam zamanı məhbusun qısa müddətdə komaya düşdüyünü bildiriblər. Vudun bu səbəbdən əziyyət çəkmədiyi qeyd olunub. Edam şahidləri isə verilən ifadələrin həqiqəti əks etdirmədiyini təkid ediblər. Edamın şahidi olan jurnalist bildirib ki, Cozef Vud təxminən 5-10 saniyəlik fasilələrlə nəfəs alıb və bu müddət ərzində onun bədənində qıcolmalar olub. Digər şahid Maykl Kifr isə jurnalistlərə bildirib ki, bu, onun iştirak etdiyi beşinci edamdır və bu cür edamlar adətən 10 dəqiqə ərzində bitir: "Bu edam zamanı da məhkum 5 dəqiqə ərzində gözlərini yumdu, ancaq nəfəs aldığını görə bilirdik. Sudan çıxan balıq kimi ağzını açıb-bağlayaraq nəfəs almağa çalışırdı".

Vudun edamından sonra Debbi Ditsin bacısı Ceyn Braun qeyd edib ki, bu 25 il ailəsi üçün çox uzun keçdi: "Bu gün, avqustun 7-də gördüyüm edam 1989-cu ildə gördüklərimlə müqayisədə heç nə idi. Mən qatilin əziyyət çəkdiyinə inanmıram. Əsl ağrı ata və bacınızın qan içində yatdığını görməkdir. Ailəmdən qalanlar nəhayət bu dəhşətli hadisəni geridə qoya biləcək. Ömrümün sonuna qədər atam və bacım olmayacaq. Amma indi daha rahat yaşaya biləcəyəm".

Ceyn Braunun həyat yoldaşı Riçard Braun da jurnalistlərə açıqlama verib.

"Məncə, ölüm cəzasına məhkum edilmiş insanlar əziyyət çəkməyə layiqdirlər. Bu adam 25 il həbsdə yatdı. O, burada bizim vergilərimizlə yemək yedi, paltar və ayaqqabı geyindi. Həqiqətən ağrısnı hiss edənlər Debbi Dits və atası Cin Dits idi",- deyə bildirib.

**Çimnaz Şahlar**

## Şeyma misirli nişanlısı ilə barışdığını təsdiqlədi



**Sosial media fenomeni Şeyma Subaşı keçmiş misirli nişanlısı Mohammed Alsaloussi ilə barışdığını təsdiqləyib.**

**Axşam.az xəbər verir ki, Şeyma bir müddətdir instaqram paylaşımları ilə diqqət çəkib. Görüntülərdə üzünü aydın göstərməsə də birgə istirahətdə olduğu şəxsin Mohammed olduğu bəlli olub. Fenomen dodaq-dodağa olan görüntülərə ürək emojiləri qoyub.**

***Qeyd edək ki, bir müddət əvvəl cütülüyün barışdığı və Parisdə lüks hoteldə qaldığı iddia edilmişdi.***

## Keçmiş həyat yoldaşı Depdən əl çəkmir

### Aktrisa Ember Hördün vəkilləri yeni apellyasiya şikayəti verib



**Hollivud aktyoru Conni Deppin keçmiş həyat yoldaşı, aktrisa Ember Hördün vəkilləri Virciniya məhkəməsinin qərarından yeni apellyasiya şikayəti verib.**

**Oxu.az xəbər verir ki, müdafiə tərəfi hesab edir ki, məhkəmə səhv edib.**

***Qeyd edək ki, məhkəmə aktrisanı Depə böhtan atmaqda təqsirli bilib. İyulun 14-də 36 yaşlı Hördün ilk apellyasiya şikayəti də rədd edilib. İndi o, qərardan bir daha şikayət etmək fikrinə düşüb.***

## Uraz Nəsrinlə eşq yaşamır

### "Cavadzadəylə bağlı yayılan xəbərlər yalandır"



**Türkiyədə fəaliyyət göstərən azərbaycanlı aktrisa Nəsrin Cavadzadənin sonuncu dəfə "Üç kuruş" serialında tərəf müqabili olduğu Uraz Kayqılaroğluyla eşq yaşaması haqda iddialar yayılıb. Axşam.az xəbər verir ki, xəbərlərin ardınca aktyor sosial şəbəkədə paylaşım edərək "Həmkarım Nəsrin Cavadzadəylə bağlı yayılan xəbərlər yalandır" yazıb. Aktrisa da həmkarının paylaşımını İnstaqram səhifəsində bölüşüb.**

***Qeyd edək ki, aktrisa bir müddət öncə evlilik hazırlığında olduğu aktyor sevgilisi Gökhan Alkandan ayrılıb.***



# Zombi hörümçəkləri gəlir

## Alimlər ölü həşəratlardan robotlar düzəldiblər

**ABŞ mühəndisləri ölü hörümçəkləri mexaniki tutma qabiliyyətinə malik robotlara çevirməyin yolunu tapıblar.**




"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Texasdakı Rays Universitetinin tədqiqatçıları ölü hörümçəklərə hava vuraraq onların ayaqlarını açaraq əşyaların ətrafına sarılmasına nail olublar. Beləliklə, ölü hörümçəklərin öz bədən çəkisinin 130 faizini qaldıra bildikləri aşkar edilib.

"Nekrobotlar" adlanan bu ölü hörümçək robotlardan elektronikada və ya kiçik həşəratları tutmaq üçün istifadə oluna biləcəyi açıqlanıb.

"Advanced Science" jurnalında dərc olunan tədqiqatın həmmüəllifi Daniel Preston "Hörümçək öldükdən sonra ondan kiçik miqyaslı, tullantıları təmizləmək üçün istifadə oluna bilər. Bu robotların böyük potensialı var" deyib.

Araşdırmanın aparıcı müəllifi Faye Yap:

- Hörümçəklərin insanlarda biceps və triceps kimi antaqonist əzələ cütləri yoxdur. Onlar öləndə bədənlərinə aktiv şəkildə təzyiq göstərmək qabiliyyətini itirirlər. Buna görə də qıvrılırlar. Biz bunun çox maraqlı olduğunu düşündük və bu mexanizmdən istifadə etmək üçün bir yol tapmaq istədik.

Digər tərəfdən, elm adamları hörümçəklərin bioloji parçalana bildiklərini və plastik və metaldan hazırlanmış elektron tutacaqlar kimi ətraf mühiti çirkləndirmədiklərini vurğulayıblar.

Nəhayət, tədqiqatçılar bədən çəkilərinə nisbətən daha ağır yüklər daşıya bilən digər ölü heyvanlarla təcrübə etmək istədiklərini bildirdilər.

**Turan**

## Qıza baxdı, qanı töküldü

### Çimərlikdə cinayət hadisəsi baş verib



**Fransada qəribə olay yaşanıb.**

Milli.Az bildirir ki, Fransada "La mama" çimərliyində cinayət baş verib. Belə ki, çılpaqlar çimərliyində qıza baxan kişini öldürüblər. İddialara görə, o qadınlara baxaraq seksual xarakterli hərəkətlər edirmiş. 46 yaşlı kişini 76 yaşlı kişi silahla öldürüb. 3 güllə yarası alan kişinin həyatını xilas etmək mümkün olmayıb.

## Sevgilisinin meyitini xəstəxanaya atıb qaçdı



**İstanbulun Üsküdar rayonunda qanlı hadisə yaşanıb. 32 yaşlı Elif iki ay əvvəl ayrıldığı kişi tərəfindən avtomobilində 3 güllə ilə öldürülüb. Şübhəli öldürdüyü qadının meyitini xəstəxananın qarşısında qoyaraq qaçıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə şənbə günü saat 22:30 radələrində baş verib. Ümraniyədə bərbər işləyən Elif Günəş özü kimi bərbərlik edən sevgilisi K.G-dən 2 ay əvvəl ayrılıb. Bununla belə, K.G Günəşdən əl çəkməyib. İddiaya görə, o, ötən həftə Elif Günəşin işlədiyi məkana gələrək mübahisə edib və ona şillə vurub. K.G şənbə günü Elif Günəşi "Son dəfə danışaq, sənə deyəcəklərim var" deyərək görüşə çağırıb. Günəş ona nəsə ola biləcəyindən qorxaraq rəfiqələrini də özü ilə apararaq görüş təklifini qəbul edib. Kadıköydəki görüşdə K.G Elif Günəşlə avtomobillə uzaqlaşıb. Üsküdara gələn K.G. və Elif Günəş maşında mübahisə etməyə başlayıb. Sevgilisi bu an avtomobildə Günəşə tapança ilə 3 dəfə atəş açıb. Daha sonra Günəşi xəstəxanaya aparan qatil itkin düşüb. Həyatını itirən 32 yaşlı Elif Günəş məmləkəti Diyarbəkirdə dəfn edilib. İndi polis hər yerdə qaçan şübhəlini axtarır.

**Günəşin qohumu Adil Aslan hadisə ilə bağlı açıqlama verib:** "Qızı istəməyə gəldilər, qardaşı qəbul etmədi. 2 ay əvvəl ayrıldılar. Şənbə günü "axırıncı dəfə görüşək" deyə Kadıköyə gediblər. "Mənimlə evlənəcəksən" deyib. Elif də qəbul etməyəndə mübahisə yaranır. Və silah işə düşüb.

**Turan**